Xalqın qəzeti!

# Xalq qəzeti

№ 37 (30441) 18 fevral 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

**Prezident İlham ƏLİYEV:**

Bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir.

# Münxendən dünyaya yayılan gur səsimiz!

## Prezident İlham Əliyevin Münxen səfəri

## Azərbaycan sülh danışıqlarına sadiqdir



**Fevralın 17-də Münxendə Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts ilə görüşü olub.**

Görüşdə ikitərəfli əlaqələrlə bağlı fikir mübadiləsi aparılıb.

Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinə öz dəstəyini göstərməyə və xoşməramlı əsasda Almaniyada bu istiqamətdə müvafiq görüşlərin keçirilməsinə dəstək verməyə hazır olduğunu bildirib. Olaf Şolts qeyd edib ki, COP29 əsnasında Ermənistanla Azərbaycan arasında əldə olunan kompromislər, COP29-un Azərbaycanda keçirilməsi sülh gündəliyinin də irəli aparılması üçün əlverişli imkanlar və şərait yaradır.

Sonra Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə birgə görüşü olub.

Görüşdə Almaniya Kansleri açılış nitqi ilə çıxış edib. O, Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini, eyni zamanda, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel tərəfindən aparılan missiyanı dəstəklədiyini vurğulayıb.

## Azərbaycan – Ermənistanın ikitərəfli görüşü

**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə ikitərəfli görüşü olub.**

Görüşdə iki ölkə arasında sülh müqaviləsi üzrə danışıqlar, münasibətlərin normallaşdırılması, sərhədlərin delimitasiyası məsələləri müzakirə olunub. Xarici İşlər nazirliklərinə tezliklə sülh müqaviləsi ilə bağlı görüş və sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının keçirilməsi barədə təlimat verilib.

İki ölkə arasında COP29 əsnasında olan qarşılıqlı kompromislər və əldə edilmiş irəliləyiş müsbət qiymətləndirilib.

## Ölkəmizin ABŞ ilə münasibətləri müsbət məcraya qayıdır



**ABŞ ilə Azərbaycan arasında münasibətlər müsbət məcraya qayıdır. Prezident İlham Əliyevin Münxendə ABŞ dövlət katibi Antoni Blinken ilə görüşü və səsləndirilən fikirlər belə deməyə əsas verir. Əslində, Azərbaycanın öz əraziləri üzərində suverenliyini tam bərpa etməsindən sonra yaranan yeni reallıqların məntiqi ikitərəfli əlaqələrin məhz pozitiv istiqamətdə inkişaf etməsini şərtləndirir. Ümid edək ki, regionda sülhün bərqərar olmasını arzuladığını açıqlayan Birləşmiş Ştatlar Azərbaycan ilə münasibətləri ikitərəfli əlaqələrin səviyyəsinə, bir-birinə verilən yüksək dəyərə uyğun inkişaf etdirilməsinə çalışacaq.**

Azərbaycan ilə ABŞ arasında dostluq və əməkdaşlıq zəminində dinamik inkişaf edən əlaqələr bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Qlobal çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik məsələlərində fəal və səmərəli birgə fəaliyyət, iqtisadi sahədə geniş qarşılıqlı fəaliyyət ikitərəfli münasibətləri xarakterizə edən əsas amillərdir.

*(ardı 3-cü səhifədə)*



## Xarici siyasətimiz qlobal arenada

### *Azərbaycanın beynəlxalq aləmdə çəkisi və önəmi artır*

**Müasir beynəlxalq münasibətlər sistemində önəmli rola malik Azərbaycanın xarici siyasətinin davamlı uğurları göz önündədir. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış, özünün milli maraqlarını hər şeydən uca tutan, çoxvektorlu xarici siyasət kursunun düzgün olması ötən onilliklər ərzində dəfələrlə öz təsdiqini tapıb. Azərbaycan bərabərhüquqluluq əsasında dünyanın bütün ölkələri ilə əməkdaşlığa açıq olduğunu hər zaman bəyan edib.**

44 günlük Vətən müharibəsinin qalibiyyətlə başa çatmasından sonra bütün sahələrdə olduğu kimi xarici siyasət sahəsində də qarşıda yeni üfüqlər açılıb. Məsələ ondadır ki, Ermənistan–Azərbaycan münaqişəsi uzun illər ərzində ölkəmizin böyük potensialını ortaya qoymasına maneçilik törədirdi. İndi isə dünya ölkələri ilə əməkdaşlıq və tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək, təmaslarını gücləndirmək məsələsində Ermənistan və Qarabağ problemi adlı maneə yoxdur.

*(ardı 6-cı səhifədə)*

## Gələn il Xəzərin dərin laylarından da qaz hasil ediləcək



### *Ötən il yataqlardan 48,5 milyard kubmetr mavi yanacaq çıxarılıb*

**Son illər Avropada "mavi yanacağ"a tələbat getdikcə artır. İndi "köhnə qitə"nin əksər ölkələri təbii qazla təminatın ödənilməsi üçün Azərbaycana böyük ümid bəsləyirlər. Elə bir qədər əvvəl Avropa İttifaqının Enerji Komissiyası tərəfindən Azərbaycanın Panavropa qaz təchizatçısı adlandırılması da təsadüfi deyil.**

*(ardı 9-cu səhifədə)*

## BRICS – yeni dünya nizamının bir hissəsi




Səhifə ⇨ 11

# İqlim maliyyələşdirməsi qlobal çağırışdır

**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerrinin görüşü olub.**



Con Kerri dövlətimizin başçısını prezident seçkilərində qələbə və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, Prezident İlham Əliyev ilə görüşlərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-la əlaqədar bir daha özünün iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləmək əzmini nümayiş etdirib. Azərbaycan, eyni zamanda, milli səviyyədə bərpaolunan enerji və yaşıl keçid prosesi sahəsində ciddi tədbirlər həyata keçirməkdədir, bu istiqamətdə region səviyyəsində və qlobal miqyasda olan tədbirləri yaxından dəstəkləyir. İqlim maliyyələşdirilməsi COP29-un əsas mövzusu olacaq ki, Azərbaycan da bu xüsusda qlobal həmrəyliyə, xüsusilə də qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini davam etdirəcək. Bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına dörd il sədrlik edən dövlət kimi çox yaxşı təcrübəsi var. Eyni zamanda, Azərbaycan digər müxtəlif platformalarda fəal şəkildə iştirak edir ki, bundan da istifadə edərək qlobal həmrəyliyə nail olunmasına dəstək verəcəkdir.

Dövlətimizin başçısı regional səviyyədə reallaşdırılan tədbirlər kontekstində Qara dənizin dibi ilə keçən layihəni qeyd etdi, həmçinin Xəzər dənizinin dibində bərpaolunan xəttin qurulması və bu xüsusda Mərkəzi Asiya dövlətləri ilə birgə işi diqqətə çatdırdı.

Con Kerri iqlim maliyyələşdirilməsi mövzusunun gündəlikdə duran əsas məsələlərdən biri olduğunu vurğuladı. O, hazırda yaşıl keçidlə əlaqədar texnoloji inkişafın çox sürətlə getdiyini və bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu, Bakıda da qəbul ediləcək qərarların iqlim dəyişikliyi prosesində beynəlxalq səylərə ciddi təkan verəcəyinə ümidvar olduğunu bildirdi.

Prezident İlham Əliyev Con Kerrini COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.

Con Kerri COP29-da məmnuniyyətlə iştirak edəcəyini diqqətə çatdırdı.

# Ukrayna ölkəmizin humanitar yardımlarını yüksək qiymətləndirir

**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşı tərəfin müraciətinə əsasən Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.**



Prezident Volodimir Zelenski dövlətimizin başçısını seçkilərdə qələbə münasibətilə təbrik etdi, Azərbaycan Prezidentinə fəaliyyətində uğurlar arzuladı.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, Volodimir Zelenskidən təbrik məktubu aldığını da məmnuniyyətlə qeyd etdi.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr müzakirə olundu.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımların yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Söhbət zamanı iki ölkə arasında iqtisadi-ticari, humanitar, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# İraqla münasibətlərimiz məmnunluq doğurur



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən İraq Kürdüstan Regionunun Başçısı Neçirvan Bərzaninin görüşü olub.**

Neçirvan Bərzani dövlətimizin başçısına prezident seçilməsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi, ondan da səmimi təbrik məktubu almasını məmnunluqla qeyd etdi.

İraq Kürdüstan Regionunun Başçısı Azərbaycana səfərini və dövlətimizin başçısı ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırlatdı. Səfər zamanı müzakirə olunmuş məsələlərin həyata keçirilməsi istiqamətində hər iki tərəfin nümayəndələrinin yaxından çalışdıqları vurğulandı. Həmçinin İraqın mərkəzi hökuməti ilə Azərbaycan arasında əlaqələr məmnunluqla qeyd olundu.

Söhbət əsnasında İraqın müxtəlif şəhərləri ilə Azərbaycan arasında birbaşa uçuşların olmasının önəmi qeyd edildi. Regionla Azərbaycan arasında iqtisadi-ticari, mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsi istiqamətində məsələlər nəzərdən keçirildi.

Neçirvan Bərzani COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı.

Dövlətimizin başçısı İraq Kürdüstan Regionunun Başçısını COP29-da iştirak etmək üçün Azərbaycana səfərə dəvət etdi.

Söhbət zamanı iqlim dəyişikliyi istiqamətində də birgə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# “Indra” şirkəti ilə əməkdaşlıq inkişaf edir



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən “Indra” şirkətinin prezidenti, idarə heyətinin sədri Mark Tomas Murtranın görüşü olub.**

Görüşdə ötən illər ərzində şirkət ilə Azərbaycan arasında qurulmuş əməkdaşlıqdan məmnunluq ifadə olundu, bu əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı.

Söhbət zamanı bir sıra yeni layihələr barədə fikir mübadiləsi aparıldı və əməkdaşlığın davam etdirilməsinə qarşılıqlı maraq ifadə olundu.

# COP29 Azərbaycan – ABŞ əlaqələrində yeni imkanlar yaradır



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Antoni Blinkenin görüşü olub.**

Bövlətimizin başçısını salamlayan Antoni Blinken dedi: Hər vaxtınız xeyir, cənab Prezident. Prezident Əliyevlə görüşmək imkanını çox yüksək qiymətləndirirəm. Son bir neçə ildə bizim görüşmək və söhbət etmək üçün bir çox imkanımız olub. Hesab edirəm ki, indiki zaman kəsiyi Azərbaycanın COP rəhbərliyini öz üzərinə götürməsi baxımından çox vacibdir. Biz bu məsələni ciddi dəstəkləyirik. Bu tədbirin uğurlu olması, eyni zamanda, Azərbaycan və Ermənistan arasında davamlı və ləyaqətli sülhün təmini üçün əlimizdən gələni etmək arzusundayıq. ABŞ bu istiqamətdə faydalı işlər görmüşdür və görməyə davam edəcəkdir. Danışılacaq çoxlu mövzular var. Cənab Prezident, bu gün bizimlə görüşə vaxt ayırdığınıza görə təşəkkür edirəm.

Prezident İlham Əliyev dedi: Təşəkkür edirəm, cənab Dövlət katibi. Siz də qeyd etdiyiniz kimi, COP29 bizim ikitərəfli gündəliyimizin önəmli bir hissəsidir. Bu, gündəliyimizdə duran məsələlərin mövzularını genişləndirir və biz cari ildə bütün təşəbbüslərimizlə bağlı hökumətinizin dəstəyinə ümid edirik. Cənab Dövlət katibi qeyd etdiyi kimi, gündəliyimizdə daha bir məsələ var və bu da Qafqazda regional vəziyyətdir, xüsusilə Ermənistan və Azərbaycan arasında sülhün əldə olunmasının perspektivləridir. Azərbaycan sülh prosesinə sadiqdir və sülh sazişinin ən qısa zamanda bağlanması bizim milli maraqlarımıza cavab verir. Mən Amerika Birləşmiş Ştatlarına və xüsusilə cənab Dövlət katibinə bu istiqamətdə göstərdiyi səylərinə görə təşəkkür edirəm.

* * *

Görüşdə Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək qiymətləndirdiklərini qeyd edən Antoni Blinken ikitərəfli münasibətlərin və ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.

Azərbaycanın ABŞ ilə ikitərəfli gündəliyi çox yüksək qiymətləndirdiyini deyən dövlətimizin başçısı İlham Əliyev öz növbəsində vurğuladı ki, ölkələrimiz arasında tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar var.

ABŞ Dövlət katibi COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, COP çərçivəsində ABŞ-ın da Azərbaycanla əməkdaşlığa və ölkəmizi bu istiqamətdə dəstəkləməyə hazır olduğunu dedi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev vurğuladı ki, COP29 Azərbaycanla ABŞ arasında əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə birgə işin aparılması üçün çox yaxşı imkanlar yaradır.

Dövlətimizin başçısı ölkəmizin Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh gündəliyini dəstəklədiyini vurğuladı, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın Baş naziri ilə keçirilmiş ikitərəfli görüşü qeyd etdi və sülh müqaviləsinə dair danışıqların, sərhədlərin delimitasiyası üzrə görüşlərin keçirilməsi ilə bağlı razılaşmaların əldə olunmasını müsbət addım kimi qiymətləndirdi.

Artıq regionda de-fakto sülhün olduğunu bildirən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan–ABŞ ikitərəfli əlaqələri Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması prosesindən kənar şəkildə özlüyündə inkişaf etdirilməlidir.

Söhbət zamanı regional bağlantılar, nəqliyyat, Orta Dəhliz və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

# Avropa Komissiyası COP29-a dəstək göstərməyə hazırdır

**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən Avropa Komissiyasının Avropa Yaşıl Saziş Təşəbbüsü, təsisatlararası əlaqələr və planlaşdırma üzrə İcraçı vitse-prezidenti Maroş Şevçoviçin görüşü olub.**

Maroş Şevçoviç Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etməsinin məmnunluq doğurduğunu vurğuladı. O, Azərbaycanın pan-Avropa enerji təchizatçısı olduğunu yüksək qiymətləndirdi. Tezliklə ölkəmizə səfər etmək niyyətində olduğunu bildirən Maroş Şevçoviç COP29-un Azərbaycan ilə Avropa İttifaqı arasında bərpaolunan enerji və iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını diqqətə çatdırdı.

O, Azərbaycanın evsahibliyi edəcəyi COP29-un sessiyasının əsas gündəliyinin çox vacib mövzulardan birinin iqlim maliyyələşdirilməsi olacağını deyərək Avropa İttifaqının da iqlim dəyişikliyi üzrə proseslərdə yaxından iştirak edən tərəfdaş kimi Azərbaycana dəstək göstərməyə hazır olduğunu vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan COP29-da qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini əsirgəməyəcək. Belə ki, Azərbaycanın Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında və digər üzv təşkilatlarda apardığı iş, Avropa İttifaqı ilə əlaqələri və digər tərəfdaşlarla münasibətləri bu cür həmrəyliyin əldə edilməsinə töhfə verə bilər. Dövlətimizin başçısı, həmçinin COP çərçivəsində ilk dəfə olaraq Üçlük mexanizminin yaradıldığını qeyd etdi və Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliyanın bir araya gələrək bu istiqamətdə birgə iş aparacağını vurğuladı.



# Banqladeşlə əlaqələrin perspektivi genişdir



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Banqladeş Xalq Respublikasının Baş naziri xanım Şeyx Hasinanın görüşü olub.**

Qoşulmama Hərəkatının Zirvə görüşü çərçivəsində ölkəmizə səfərini və Azərbaycan Prezidenti ilə görüşlərini məmnunluqla xatırladan Şeyx Hasina dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Banqladeşin Baş naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı və ölkəsinin də qlobal iqlim dəyişikliyindən əziyyət çəkdiyini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın COP29 çərçivəsində inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin İslam Əməkdaşlıq Təşkilatı, eyni zamanda, Avropa təsisatları ilə əlaqələrinin bu istiqamətdə həmrəyliyin gücləndirilməsi işinə töhfə verəcəyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti COP29-da iştirak etmək üçün Banqladeşin Baş nazirini ölkəmizə səfərə dəvət etdi.

Şeyx Hasina dəvəti məmnuniyyətlə qəbul etdi.

Görüşdə Banqladeşlə Azərbaycan arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, əczaçılıq, kənd təsərrüfatı və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin olduğu diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycan–Banqladeş iqtisadi əməkdaşlıq üzrə işçi qrupunun yaradılmasının və iki ölkənin biznes dairələri arasında əlaqələrin qurulmasının vacibliyi vurğulandı.

Ölkələrimizin xarici işlər nazirləri və aidiyyəti dövlət qurumları arasında əlaqələrin gücləndirilməsi və siyasi məsləhətləşmələr mexanizminin yaradılması məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# BƏƏ COP29-un uğurlarına inanır və dəstək verir



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin görüşü olub.**

Sultan Əhməd Əl-Cabir Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarını və ən xoş arzularını, həmçinin prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevə, Azərbaycan dövlətinə və xalqına səmimi təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirdi, onun da salamlarını BƏƏ Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev bu yaxınlarda Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanla telefon danışığını və onun Azərbaycana səfərini məmnunluqla xatırladı. Qeyd etdi ki, bu, tarixi səfər idi. Belə ki, BƏƏ Prezidenti ilk dəfə Azərbaycana rəsmi səfər edirdi.

COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı Azərbaycanı təbrik edən nazir Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın tapşırığına əsasən BƏƏ-nin COP heyətinin hazırda Azərbaycan nümayəndə heyəti ilə yaxından işlədiyini diqqətə çatdırdı. O, COP29-un COP-un tarixində ən uğurlu sessiyalardan biri olacağına əminliyini ifadə etdi.

Azərbaycan Prezidenti COP çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizə göstərdiyi dəstəyin və aparılan təcrübə mübadiləsinin çox əhəmiyyətli olduğunu bildirdi. Dövlətimizin başçısı BƏƏ, Azərbaycan və Braziliya arasında COP çərçivəsində yaradılan Üçlük mexanizminin çox uğurlu addım olduğunu diqqətə çatdırdı.

Görüşdə Azərbaycanla BƏƏ arasında müxtəlif sahələrdə, o cümlədən ölkəmizdə bərpaolunan enerji sahəsində əməkdaşlıq xüsusi vurğulandı. “Masdar” şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti və ölkəmizin qeyri-neft sənayesinə yatırdığı investisiyalar məmnunluqla qeyd edildi, bu sahədə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# ABŞ şirkəti ölkəmizlə əməkdaşlığa hazırdır



**Fevralın 17-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə qarşı tərəfin müraciətinə əsasən, “The Rockefeller Foundation”ın strateji kommunikasiyalar, siyasət və təbliğat üzrə baş vitse-prezidenti xanım Eylin Okonnorun görüşü olub.**

COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıran Eylin Okonnor “The Rockefeller Foundation”ın dünyada iqlim dəyişikliyi və onun qarşısının alınmasının maliyyələşdirilməsi sahəsində aktiv fəaliyyət göstərdiyini, bu istiqamətdə bir sıra dövlətlərlə, özəl sektorla və vətəndaş cəmiyyəti ilə çalışdığını qeyd etdi. O, bu xüsusda Azərbaycanla əməkdaşlığa hazır olduqlarını bildirdi.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı qeyd etdi ki, COP29-la əlaqədar inklüzivliyin tərəfdarıdır və Azərbaycan bu istiqamətdə beynəlxalq ictimaiyyətlə yaxından işləyir.

Ölkəmizin “The Rockefeller Foundation”la da əməkdaşlığa hazır olduğunu vurğulayan Prezident İlham Əliyev Fondun nümayəndə heyətini Azərbaycana səfərə dəvət etdi.

***AZƏRTAC***

# Özbəkistanın Baş naziri Azərbaycanın Baş nazirini təbrik edib

**Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, A.Aripov həmkarını Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Məktubda Azərbaycan–Özbəkistan dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədilə dövlət başçıları tərəfindən iki ölkənin hökumətlərinin qarşısında qoyulmuş mühüm vəzifələrin həyata keçirilməsində sıx əməkdaşlığa ümid ifadə olunur.

A.Aripov, həmçinin nəqliyyat-logistika, energetika, sənaye, kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə əldə olunmuş razılaşmaların ardıcıl surətdə həyata keçiriləcəyinə əminliyini ifadə edib.

# İrakli Kobaxidze Əli Əsədova təbrik məktubu ünvanlayıb

**Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, məktubda İ.Kobaxidze Ə.Əsədovu Azərbaycan Respublikasının Baş naziri təyin olunması münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan-Gürcüstan əməkdaşlığı və qarşılıqlı dəstəyi iki ölkənin strateji tərəfdaşlığının, sıx mehriban qonşuluq əlaqələrinin bariz ifadəsi kimi qiymətləndirilib, münasibətlərin gələcəkdə daha da intensiv və əhatəli olacağına əminlik ifadə olunub.

Gürcüstanın Baş naziri iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində birgə səy göstərməyə hazır olduğunu bildirib.

# Ölkəmizin ABŞ ilə münasibətləri müsbət məcraya qayıdır

*(əvvəli 1-ci səhifədə)*



Enerji sahəsində səmərəli əməkdaşlıq mövcuddur. Birləşmiş Ştatlar Azərbaycanın enerji strategiyasını bütün mərhələlərdə güclü və ardıcıl şəkildə dəstəkləyib. Rəsmi Bakı enerji təhlükəsizliyinin təmin edilməsində ABŞ ilə sıx əməkdaşlığı, həyata keçirilən irimiqyaslı transmilli layihələrdə Birləşmiş Ştatların hərtərəfli dəstəyini xüsusilə yüksək qiymətləndirir. Ötən müddət ərzində müstəqil və çoxvektorlu siyasət yürüdən rəsmi Bakı Vaşinqtonla bir çox sahələrdə ikitərəfli münasibətləri davamlı şəkildə inkişaf etdirib. Bu gün əsas istiqamətlər enerji, təhlükəsizlik və iqtisadi əlaqələrin inkişafı sahəsində strateji tərəfdaşlıqdır.

Strateji enerji tərəfdaşlığı və artan iqtisadi əlaqələrlə yanaşı, Azərbaycan, həm də ABŞ-ın təhlükəsizlik və terrorla mübarizə üzrə mühüm tərəfdaşıdır. Azərbaycan Amerika xalqı üçün çətin bir zamanda ABŞ-a yardım təklif edən ilk dövlətlərdən biri olub. 2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqtonda baş vermiş terror aktlarından dərhal sonra Azərbaycanın ümummilli lideri Heydər Əliyev terrorizmlə mübarizədə ABŞ-a qeyd-şərtsiz dəstək təklif edib. Vaşinqton Azərbaycan rəhbərliyinin köməyini qəbul edib və Əfqanıstandakı missiya üçün qeyri-döyüş yükləri daşıyan NATO təyyarələri Azərbaycanın hava məkanından keçərək ölkəmizin hava limanlarından istifadə edib.

NATO-nun Əfqanıstandakı missiyası üçün nəzərdə tutulan bütün yüklərin, təxminən, 40 faizi Bakıdan keçib. Bundan əlavə, Azərbaycan uzun illər İraq və Kosovoda sülhməramlı missiyalarda iştirak edib. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan sülhməramlı missiyasını sonadək yerinə yetirib, Əfqanıstanı sonuncu tərk edən ölkələrdən biri olub. Azərbaycan jurnalistləri ilə görüşündə ABŞ-ın ölkəmizdəki səfiri Mark Libbi də bildirib ki, uzun illər Azərbaycan ABŞ-la birlikdə transmilli təhlükələrə qarşı mübarizə aparıb.

Əlbəttə, Azərbaycan etibarlı və strateji tərəfdaş kimi qəbul edilir və ABŞ da ölkəmizlə sıx, isti münasibətlərin olmasında maraqlıdır. Münxen səfəri çərçivəsində Prezident İlham Əliyevin ABŞ-ın üç rəsmi nümayəndəsi ilə görüşməsi əlaqələrin inkişaf perspektivlərinin olduğunu bir daha nümayiş etdirməklə yanaşı, ABŞ-ın Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu təsdiqləyir. 2022-ci ildə ABŞ Prezidenti Co Bayden Azərbaycan dövlətinin başçısı İlham Əliyevə ünvanladığı məktubunda qeyd etmişdi ki, Birləşmiş Ştatlar bir çox sahələrdə Azərbaycanın güclü tərəfdaşı olub və bu gün də ikitərəfli münasibətlərdə bu mövqeyə sadiq qalmaqda davam edir.

Məktubda qeyd edilmişdi ki, dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm dönüş dövrünü yaşadığı bir vaxtda ABŞ və Azərbaycan, eyni zamanda, təmiz enerjiyə keçidlə bağlı uzunmüddətli öhdəliklərini təmin etmək üçün lazımi investisiyaları və dəyişiklikləri həyata keçirirlər. Bu baxımdan enerji təhlükəsizliyi məqsədlərinə nail olmaq üçün şaxələndirmənin vacib olduğu və Azərbaycanın regional formatda böyük rol oynadığı qeyd edilmişdi. ABŞ lideri, həmçinin regional və qlobal bazarların sabitləşdirilməsi baxımından Transxəzər əməkdaşlığının böyük potensialının reallaşdırılmasında Azərbaycanın əhəmiyyətini xüsusi vurğulamışdı.

Fevralın 17-də Münxendə ABŞ Dövlət katibi Antoni Blinkenin Prezidenti İlham Əliyev ilə görüşündə səsləndirdiyi fikirlər də onu göstərir ki, Birləşmiş Ştatlar Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır və Bakının Cənubi Qafqaz regionundakı oynadığı aparıcı rolu qəbul edir. Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, görüş ABŞ-ın müraciətinə əsasən baş tutub. Bu, bir daha onu təsdiqləyir ki, ABŞ Azərbaycanı regional proseslərin axarına təsir edən güclü dövlət kimi qiymətləndirir və postmüharibə dövrünün inkişafına təsir göstərən tərəfin məhz Bakının olduğu etiraf edir. Bu, həm onu göstərir ki, okeanın o tayında Azərbaycana yönəlmiş destruktiv addımların pesrpektivsizliyini anlayırlar. Qarabağ münaqişəsinin həll olunmasından sonra regional əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi üçün əla imkanlar yaranıb və strateji önəmli bölgələrdə sabitliyin və təhlükəsizliyin güclənməsində maraqlı olan ABŞ Cənubi Qafqaz regionunun ən güclü ölkəsi olan Azərbaycan ilə əlaqələrini daha da dərinləşdirməyə diqqətini artırmalıdır.

Antoni Blinkenin görüşdə səsləndirdiyi fikirlər belə deməyə əsas verir ki, ABŞ məhz bu istiqaməti prioritet hesab edir. Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək qiymətləndirdiklərini qeyd edən ABŞ Dövlət katibi vurğulayıb ki, ikitərəfli münasibətlərin və ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanlar var. Ötən il 19–20 sentyabr antiterror tədbirlərindən sonra Azərbaycanla ABŞ arasında münasibətlərdə müəyyən anlaşılmazlıq yaranmışdı. Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra bildirmişdi ki, müharibə başa çatıb, Qarabağ problemi artıq yoxdur və Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesi öz axarı ilə davam edir.

Mövcud vəziyyət Ermənistan–Azərbaycan əlaqələrinin tam potensialının üzə çıxarılması baxımından əhəmiyyətlidir. Azərbaycan da dəfələrlə bildirib ki, regionda sülhün və sabitliyin tərəfdarıdır və ABŞ bu məsələni dəstəkləyirsə, Bakı da bunu alqışlayır. Görüşün müsbət məcrada keçməsi və müzakirə olunan məsələlər belə deməyə əsas verir ki, tərəflər həmin anlaşılmazlığı arxada qoyaraq münasibətləri strateji əlaqələrin ruhuna uyğun inkişaf etdirmək istəyirlər. Amma burada əsas məsələ odur ki, ABŞ–Azərbaycan əlaqələri Ermənistan ilə Azərbaycan arasında prosesin əsirinə və ya hədəfinə çevrilməməli, strateji əməkdaşlığın ruhuna uyğun inkişaf etməlidir. Görüş çərçivəsində qarşlılıqlı şəkildə əməkdaşlığın keyfiyyətcə yeni bir səviyyəyə qaldırılmasının əhəmiyyətinin vurğulanması da buna ümid etməyə əsas verir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Prezident İlham Əliyev Fikrət Məmmədovun Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilməsi haqqında Milli Məclisə təqdimat verib

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fikrət Fərrux oğlu Məmmədovun Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verib.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq, parlamentdə təqdimata müvafiq qaydada baxılacaq.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezidentim!**

Fevralın 7-də prezident seçkilərinin Qarabağ da daxil olmaqla bütün Azərbaycan ərazisində uğurla keçirilməsi və yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizi Türkiyə Palatalar və Birjalar Birliyi və Türk Ticarət və Sənaye Palataları Birliyi adından təbrik edirəm.

Əminəm ki, Zati-alinizin yenidən Prezident seçilməsi təkcə ölkələrimizdə deyil, bütün Türk dünyasında inkişaf, rifah, sülh, sabitlik və təhlükəsizlik üçün faydalı olacaqdır.

Sizə cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram!

**Hörmətlə,**

***Rıfat HİSARCIKLIOĞLU,***
***Türkiyə Palatalar və Birjalar Birliyinin sədri,***
***Türk Ticarət və Sənaye Palataları Birliyinin sədri***

***

**Cənab Prezident!**

İşğaldan azad edilmiş ərazilər də daxil olmaqla bu il fevralın 7-də bütün Azərbaycanda keçirilən prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm.

Seçkilərin nəticələrinin Azərbaycan xalqı üçün xeyirli olmasını diləyirəm.

Qardaş ölkələr olan Azərbaycan və Türkiyə arasında münasibətlərin "Bir millət, iki dövlət" prinsipi əsasında daha da möhkəmlənəcəyinə inanıram.

Cənab Prezident, Sizə dərin ehtiramımı bildirir, fəaliyyətinizdə uğurlar arzulayıram!

**Hörmətlə,**

***Seyid ARDIÇ,***
***Ankara Sənaye Palatasının İdarə Heyətinin sədri***

***

**Hörmətli cənab Prezident!**

Sizi Azərbaycanda keçirilmiş növbədənkənar prezident seçkilərində parlaq qələbəniz münasibətilə təbrik edirik. İnanırıq ki, Sizin bu qələbəniz və növbəti müddətə prezidentliyiniz regionda təhlükəsizliyin, sülh və əmin-amanlığın qorunmasına töhfə olacaqdır.

Azərbaycana rəhbərlik etdiyiniz 20 il ərzində Siz ölkənizin tərəqqisi, xalqınızın rifahı, əmin-amanlığı üçün çalışmısınız. Siz hər zaman bütün sahələr kimi, idman sahəsinin inkişafına da diqqət göstərmisiniz, humanist dəyərlərə önəm vermisiniz. Müasir Azərbaycan dövləti atanız Heydər Əliyev tərəfindən mükəmməl və ali dəyərlər üzərində qurulmuşdur və Siz də həmişə bu dəyərlərin ən yüksək səviyyədə daşıyıcısı olmusunuz. Əlbəttə, bütün bunlar Sizin bir lider kimi şəxsi keyfiyyətlərinizdən qaynaqlanır. Hər zaman bütün insani dəyərləri öz şəxsinizdə və addımlarınızda əks etdirmisiniz. Xüsusən idman sahəsinə və idmançılara göstərdiyiniz diqqət və qayğı son dərəcə təqdirəlayiqdir.

Sizin rəhbərliyinizlə Azərbaycanda gənclərin inkişafı üçün bütün zəruri tədbirlər, strateji dövlət proqramları həyata keçirilir. Məhz Sizin diqqət və qayğınız sayəsində Azərbaycanda sağlam ruhlu, nümunəvi vətənpərvər gənclər yetişir, onlar elm, təhsil və idman sahələrində böyük uğurlar qazanırlar.

Möhtərəm cənab Prezident, Sizə bütün təşəbbüslərinizdə və işlərinizdə yeni-yeni nailiyyətlər diləyirik.

**Dərin hörmətlə,**

***Qabi MİXAELİ,***
***Dünya və Avropa Krav Maqa federasiyalarının prezidenti***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Sizə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi adından səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək FAO-nun daha yaxşı istehsal, daha yaxşı qidalanma, daha yaxşı ətraf mühit və daha yaxşı həyat prinsiplərinə əsaslanan 2022-2031-ci illəri əhatə edən Strateji Çərçivə sənədinə istinad edərək, Azərbaycanda kənd təsərrüfatının dayanıqlı inkişafına dəstək göstərmək niyyətini bir daha vurğulamaq istəyirəm.

Biz, həmçinin Azərbaycan Respublikasına 2024-cü ildə keçiriləcək COP29 Tərəflər Konfransına təşkilatımızın mandatına uyğun sahələr üzrə dəstək göstərməyə hazır olduğumuzu bildiririk.

Sizin rəhbərliyinizlə Azərbaycan hökuməti ilə FAO arasında davamlı şəkildə tərəfdaşlıq və əməkdaşlıq edəcəyimizə inanıram.

Zati-aliləri, dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nasar HAYAT,***
***FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri***

***

**Hörmətli cənab Prezident!**

Sizi yenidən Prezident seçilməyiniz münasibətilə Portuqaliyanın Metallurgiya və Əlaqədar Sənaye İşçiləri Həmkarlar İttifaqı Təşkilatının üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Cənab Prezident, Sizə ali dövləti fəaliyyətinizdə yeni uğurlar, Azərbaycan xalqına isə tərəqqi və rifah diləyirəm!

**Ən xoş arzularla,**

***Joze SİMOES,***
***Portuqaliyanın Metallurgiya və Əlaqədar Sənaye İşçiləri Həmkarlar İttifaqı Təşkilatının baş katibi***

***

**Hörmətli cənab Prezident!**

Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilərin bütün ölkə ərazisində keçirilməsi tarixi hadisədir. Azərbaycan xalqı ilk dəfə olaraq ərazi bütövlüyünü tam bərpa etmiş qalib ölkənin Prezidentini seçdi.

Çünki 30 ilə yaxın həsrətini çəkdiyimiz torpaqlarımızın işğaldan azad edilməsi məhz Sizin güclü siyasi iradənizin və gərgin əməyinizin nəticəsidir. Siz dövlətçilik prinsiplərini əsas tutaraq Azərbaycanın haqq səsini beynəlxalq tribunalarda səsləndirirsiniz.

Mən uzun illərdir ki, atam Həsən Haqverdinin yolu ilə gedərək rəssam kimi xaricdə tədbir və sərgilər keçirməklə ölkəmizi təbliğ edirəm.

Cənab Prezident, Sizin yorulmaz fəaliyyətiniz sayəsində Azərbaycan dövlət quruculuğunda və beynəlxalq aləmdə sanballı uğurlar qazanmışdır. Sizin daxili və xarici siyasətinizə xaricdəki azərbaycanlılar da böyük qürur hissi ilə dəstək verirlər. Biz hər zaman dövlətimizin, Prezidentimizin yanında olacağıq. Azərbaycan dövlətinə və xalqına yorulmaz xidmətlərinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Ailə üzvlərimiz və şəxsən öz adımdan 7 fevral prezident seçkilərində qazandığınız mütləq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə bütün işlərinizdə uğurlar arzulayıram!

**Hörmətlə,**

***Səidə HAQVERDİ (Fagala),***
***keramika rəssamı,***
***"The Post Oak School"un müəllimi***

**ABŞ, Hyuston şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Növbədənkənar prezident seçkilərində əldə etdiyiniz üstün qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir.

Azərbaycanın inkişafı istiqamətində atdığınız addımlarda Siz hər zaman qətiyyət nümayiş etdirmisiniz.

Sizin müdrik idarəçiliyiniz sayəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qayıtdı. Şanlı Zəfərimiz dünya azərbaycanlılarının qəlbində sevinc və qürur hissi oyatdı. Bunun nəticəsidir ki, Azərbaycan xalqı növbədənkənar prezident seçkilərində Müzəffər Ali Baş Komandanın-Sizin namizədliyinizi inamlı şəkildə dəstəklədi. Çox şadam ki, Qalib Xalqımız öz Qalib Liderini seçdi və bu seçim ilə Azərbaycan yeni inkişaf yoluna qədəm qoyur.

Cənab Prezident, Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayır və bu uğurların ölkəmizin davamlı inkişafına xidmət edəcəyinə əminliyimi bildirirəm!

Yaşasın Azərbaycan!

**Hörmətlə,**

***İsa HƏMZƏZADƏ,***
***"Yorkshire" Azər-Türk Assosiasiyasının (ATAY) sədri***

**Böyük Britaniya, Lids şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Bu gün hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı Şanlı Qarabağ Zəfərinin sevincini yaşayır, haqlı olaraq qürur hissi keçirir. Azərbaycanın çoxəsrlik tarixində heç vaxt buna bənzər qələbə olmayıb. Xalqımız Sizin kimi prezidenti olmağı ilə fəxr edir, ona qələbə sevinci yaşadan, başucalığı gətirən Liderinə böyük dəstək verir. Ölkəmizdə keçirilən prezident seçkiləri bir daha bunu göstərdi.

2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçilməyiniz, xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanmaqla, son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən ən böyük dəyərdir. Azərbaycan xalqı səsini Sizə verməklə, Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini bir daha nümayiş etdirdi.

Cənab Prezident, seçkilərdə qazandığınız uğurlu qələbə xəbərini Avropada yaşayan bütün azərbaycanlı soydaşlarımızla birlikdə sevinc hissləri ilə qarşıladıq. Sizi səmimiyyətlə təbrik edir, ölkəmizin daha da güclənməsi naminə fəaliyyətinizdə uğurlar diləyirik!

**Dərin hörmətlə,**

***Elsevər MƏMMƏDOV,***
***Beniluks Azərbaycanlıları Konqresinin sədri***

**Niderland Krallığı, Rotterdam şəhəri**

***

**Hörmətli cənab Prezident!**

2024-cü ilin fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Uzaqgörən siyasətiniz və düşünülmüş addımlarınız sayəsində xalqımızın Qarabağ həsrətinə son qoyuldu. Sizin rəhbərliyinizlə qazanılan möhtəşəm Qələbə həmvətənlərimizə sevinc və qürur hissi bəxş etdi. Namizədliyinizin yüksək səs göstəricisi ilə dəstəklənməsi ölkə naminə etdiyiniz misilsiz xidmətlərə Azərbaycan xalqının verdiyi qiymətdir.

Siz Azərbaycanı dünyada güclü mövqeyi olan dövlətlərdən biri etdiniz. Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar arzulayıram. İnanıram ki, Sizin liderliyiniz sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik qorunacaq və bizim beynəlxalq müstəvidə nüfuzlu mövqeyimiz daimi olacaqdır. Azərbaycandan uzaqda yaşasaq da biz azərbaycanlılar Sizinlə qürur duyuruq!

Yaşasın bütöv Azərbaycan!

**Hörmətlə,**

***Kəmalə ŞİRİYEVA,***
***Kanada Azərbaycan-Türk Assosiasiyanın sədri***

**Kanada, Ontario əyaləti**

***

**Hörmətli cənab Prezident!**

Sizi Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbəniz münasibətilə Tatarıstanın Naberejnıe Çelnı şəhərində fəaliyyət göstərən "Xarı-Bülbül" Azərbaycan Milli-mədəni muxtariyyətinin yerli təşkilatının üzvləri adından səmimi-qəlbdən təbrik edirəm.

Bu seçkilərin nəticələri Sizin xalqın arasında danılmaz nüfuzunuzdan, ölkə vətəndaşlarının rəhbərliyiniz altında fəal işləməyə və strateji sosial-iqtisadi problemləri həll etməyə hazır olduğundan xəbər verir!

Sizə möhkəm cansağlığı, yüksək dövlət vəzifələrinizdə yeni uğurlar arzulayır, rəhbərliyinizlə xalqımıza rifah və firavanlıq arzulayıram. Siz Azərbaycan və Azərbaycan xalqı üçün layiqli gələcəyə inam yaradırsınız!

**Hörmətlə,**

***Əhmədov İSFƏNDİYAR,***
***Naberejnıye Çelnı şəhərindəki "Xarı-bülbül" Azərbaycan Milli-mədəni Muxtariyyətin sədri***

**Rusiya Federasiyası, Tatarıstan Respublikası, Naberejnıye Çelnı şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Rusiya Federasiyasında fəaliyyət göstərən "İnkişaf" Azərbaycanlıların Regionlararası Alyansı" ictimai təşkilatının üzvləri adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə əldə etdiyiniz qələbə Azərbaycan xalqının Sizə olan etimadının və inamının bariz nümunəsidir. Azərbaycan xalqı bir daha öz layiqli Liderini yüksək səs çoxluğu ilə dəstəklədi.

Azərbaycan Respublikasının suverenliyinin bərpasından sonra ilk dəfə ölkəmizin bütün ərazilərində bu seçkinin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azad edilmiş torpaqlarımıza qayıdışın sevincini yaşayan xalqımız seçimində bir daha müdrik qərar verdi, Vətənimiz üçün yorulmadan çalışan rəhbərini yenidən Prezident seçdi.

Sizin uzaqgörən siyasətiniz, yüksək diplomatik bacarığınız sayəsində bu gün Azərbaycan dünyada Qalib ölkə kimi tanınır. Əminik ki, Sizin davamlı müdrik rəhbərliyiniz və liderliyiniz sayəsində Azərbaycan və Rusiya arasında dostluq, tərəfdaşlıq münasibətləri daha da güclənəcək və inkişaf edəcəkdir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə uğurlar, Vətənimiz Azərbaycana tərəqqi, xalqımıza xoşbəxtlik və əmin-amanlıq arzu edirik!

**Hörmətlə,**

***Ramil ƏLİYEV,***
***"İnkişaf" Azərbaycanlıların Regionlararası Alyansı" ictimai təşkilatının sədri***

**Rusiya Federasiyası, Moskva vilayəti, İstra şəhəri**

***

**Hörmətli cənab Prezident.**

"Poltava vilayətində Ukrayna Azərbaycanlıları Şurası" İctimai Təşkilatının sədri və Poltava vilayətində azərbaycanlıların diasporu adından növbədənkənar prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə Sizi təbrik edirəm.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizə olan sevgisini və sədaqətini təsdiq etdi.

Cənab Prezident, Sizin sayənizdə bu gün Azərbaycan xalqı öz tarixinin ən şərəfli və qürurlu dövrünü yaşayır. Mən Qalib Xalqın nümayəndəsi olduğum üçün çox xoşbəxtəm. Biz Qalib dövlətin vətəndaşlarıyıq.

Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq.

**Hörmətlə,**

***Füzuli QƏNBƏROV,***
***"Poltava vilayətində Ukrayna Azərbaycanlıları Şurası" İctimai Təşkilatının sədri***

**Ukrayna, Poltava vilayəti**

***

**Hörmətli cənab Prezident!**

Qazaxıstan Respublikasının Almatı şəhərində yaşayan bütün azərbaycanlılar adından növbədənkənar prezident seçkilərində inamlı qələbəniz və Azərbaycan xalqının mütləq etimadını qazanmağınız münasibətilə Sizi təbrik edirəm.

Biz xoşbəxtik ki, Siz bizim prezidentimizsiniz. Siz düşmən tapdağı altında olan torpağı azad edən, xalqımızın namusunu özünə qaytaran lidersiniz.

Hörmətli Prezident, Siz və atanız, ulu öndər Heydər Əliyev Azərbaycanın taleyini, xalqın yolunu müəyyən etdiniz. Siz Azərbaycanın min illik tarixinə öz adlarınızı və nailiyyətlərinizi qızıl hərflərlə əbədi yazmısınız. Məhz Sizin müdrik və strateji qərarlarınız işğal olunmuş torpaqların Azərbaycan xalqına qaytarılmasına kömək etdi.

Sizin uzaqgörən rəhbərliyiniz sayəsində Azərbaycan bütün sahələrdə müstəsna uğurlar qazanıb və dünya arenasında öz layiqli yerini tutub.

Biz Qazaxıstandan Vətənimizdə baş verən hadisələri diqqətlə izləyir, Sizin siyasətinizi dəstəkləyir və qlobal səviyyədə Lider kimi yüksək nüfuzunuzla fəxr edirik.

Bu seçkilər xalqın birliyinin, demokratik və şəffaf seçkilərin, xarici müşahidəçilərin bolluğunun, yüksək seçici fəallığının və şəffaflığın nümunəsi oldu. Azərbaycan sabit şəraitdə demokratik seçkilər keçirməklə, xalqın dövlət başçısına dəstəyini göstərməklə dünyaya nümunə oldu. Seçkilərin nəticəsi gözlənilən idi - Qalib ölkə xalqı öz Liderinə, Qalibinə inamını ən yüksək səs çoxluğu ilə göstərdi.

Biz Sizə inanırıq və bilirik ki, inamla Sizin arxanızca addımlamaq olar. Siz Azərbaycanın xoşbəxt gələcəyinin qarantısınız.

Qazaxıstanda yaşayan azərbaycanlılar Sizə, gözəl ailənizə möhkəm cansağlığı, uzun ömür və səadət, ümumi evimiz Azərbaycana isə çiçəklənmə və qarşıya qoyulan məqsədlərin həyata keçməsini arzulayırlar.

**Hörmətlə,**

***Sadiyev Qəhrəman Sənan oğlu,***
***Almatı Şəhər Azərbaycanlıları Assosiasiyasının sədri***

**Qazaxıstan Respublikası, Almatı şəhəri**

***

**Hörmətli cənab Prezident!**

Alban-Udi Xristian Dini İcması adından Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar Prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Seçicilərin yekdil dəstəyi Sizin yüksək nüfuzunuza tam etimad göstərdiyini təsdiq etdi. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan sonsuz etimadının təzahürüdür.

Azərbaycanda yaşayan bütün xalqların həyat səviyyəsinin yaxşılaşmasına verdiyiniz töhfə göz qabağındadır. Sizin davamlı əməyiniz sayəsində ölkə vətəndaşlarının həyatı hər gün daha da yaxşılaşır, daha keyfiyyətli, xoşbəxt olur. Bu, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasında da tam hiss olunur. Sizin rəhbərliyiniz sayəsində ölkəmizdə hamı üçün əlverişli, tolerant və multikultural model yaradılmışdır.

Cənab Prezident, Sizin yenidən Prezident seçilməyinizlə bağlı yaşadığımız sevinc hissi hüdudsuzdur.

Sizə möhkəm cansağlığı, vəzifənizdə yeni uğurlar, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirik. Azərbaycanın gələcəyi Sizinlə daha gözəl olacaq, xalqımız daha xoşbəxt, daha firavan yaşayacaq.

**Hörmətlə,**

***Robert MOBİLİ,***
***Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcmasının sədri, "Şöhrət" ordenli***

**Azərbaycan Respublikası, Bakı şəhəri**

***

**Əziz və hörmətli Prezident!**

Zəfər seçkilərində əldə etdiyiniz qələbə münasibətilə Azərbaycan-Yaponiya Dostluq Mərkəzi və Yaponiyada yaşayan Azərbaycan icması adından Sizə səmimi təbriklərimizi çatdırıram. Tam şəffaf və demokratik şəraitdə keçirilən seçkilərdə parlaq qələbəniz Azərbaycan xalqının Sizə sonsuz etimadını və dəstəyini bir daha təsdiq etdi.

Siz Müzəffər Ali Baş Komandan və Qarabağın fatehi kimi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiniz, doğma Vətənimiz üçün yeni inkişaf və firavanlıq mərhələsinin başlanğıcını qoydunuz.

Sizin qətiyyətli rəhbərliyinizlə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi inkişaf dövrünü yaşayır. Ölkəmizin beynəlxalq mövqeyi daha da güclənmiş, nüfuzu artmışdır. Xalqımız Sizin ətrafınızda sıx birləşmişdir.

Tam əminik ki, Siz yeni prezidentlik dönəmində Azərbaycanı daha da inkişaf etdirəcək, ölkəyə yeni zəfərlər qazandıracaqsınız və biz respublikada daha sürətli inkişaf proseslərinin şahidi olacağıq.

Cənab Prezident, Sizə cansağlığı, gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm!

**Ən xoş arzularla,**

***Xəlil KƏLƏNTƏR,***
***Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri***

**Yaponiya, Tokio şəhəri**

***

**Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan!**

Kanadanın Toronto Şəhər Təhsil Mərkəzinin xarici dillər bölməsinin Azərbaycan dili sinfinin müəllim kollektivi adından və şəxsən öz adımdan Sizi növbədənkənar prezident seçkilərində qazandığınız qələbə münasibətilə ürəkdən təbrik edirəm.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycanın Vətən müharibəsindəki şanlı Qələbəsi müasir tariximizə qızıl hərflərlə yazıldı. Otuz ildən sonra işğaldan azad olunmuş ata-baba torpaqlarımızda bu gün yenidənqurma işləri sürətlə davam etdirilir.

Ölkəmizin əmin-amanlığı, xalqımızın firavanlığı naminə görəcəyiniz işlərdə Sizə uğurlar arzulayıram. İnanıram ki, qalib ölkənin qalib vətəndaşlarının rifahı Sizin düşünülmüş qərarlarınız nəticəsində gündən-günə yüksələcək. Torpaqlarımıza bir daha düşmən ayağı dəyməyəcək. Çünki Sizin kimi Ali Baş Komandanın "dəmir yumruğu" hər zaman düşmənə öz yerini göstərməyə qadirdir.

Biz qalib xalqın xaricdə yaşayan qalib nümayəndələri kimi müzəffər liderimizlə fəxr edirik. Sizin rəhbərliyinizlə Vətənimizin daha böyük nailiyyətlər əldə edəcəyinə əminik.

**Hörmətlə,**

***Yeganə CƏFƏROVA,***
***Toronto Şəhər Təhsil Mərkəzinin xarici dillər bölməsinin Azərbaycan dili sinfinin rəhbəri və baş müəllimi***

**Kanada, Toronto**

***

**Möhtərəm cənab Prezident!**

Böyük Azərbaycan xalqı bu dəfə də Vətənimiz üçün doğru seçim etdi. Bir dövlətin inkişaf etməsi, digər dövlətlər arasında söz sahibi olması üçün ona əzmkar, ağıllı xalq və güclü lider lazımdır. Azərbaycan xalqının xoşbəxtliyi də məhz bundadır ki, müstəqilliyini bərpa etdikdən sonra çox güclü, hətta deyə bilərik ki, dünyanın ən güclü liderləri sırasında olan iki şəxsiyyətin – Ümummilli Lider Heydər Əliyevin və Sizin rəhbərliyinizlə böyük inkişaf yolu keçdi.

Siz Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirərək Azərbaycan dövlətini hazırkı inkişaf səviyyəsinə yüksəltdiniz, xalqımıza böyük nailiyyətlər qazandırdınız. Otuz il işğal altında qalan torpaqlarımız məhz Sizin rəhbərliyinizlə geri qaytarıldı. Sizin dərin zəkanız, biliyiniz, zəngin təcrübəniz, qətiyyətiniz, ordumuzun rəşadəti, xalqın liderinə olan inamı sayəsində Azərbaycan haqq mübarizəsini uğurla başa vurdu, gücünü bütün dünyaya göstərdi. Bizə bu Qələbəni, qüruru və xoşbəxtliyi yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, Sizi seçkilərdəki inamlı qələbəniz münasibətilə Münxen Azərbaycanlıları Mədəniyyət Mərkəzi olaraq ürəkdən təbrik edir, bu çətin və şərəfli vəzifənizdə Sizə müvəffəqiyyətlər arzulayırıq. Uğurlu fəaliyyətinizlə Azərbaycana bundan sonra da yeni-yeni zəfərlər qazandıracağınıza inanırıq.

Hər zaman Sizin arxanızdayıq, yürütdüyünüz siyasəti dəstəkləyirik.

**Hörmətlə,**

***Münxen Azərbaycanlıları Mədəniyyət Mərkəzi***

III MƏQALƏ

# Yeni tarixi mərhələ: strateji məqsəd və növbəti vəzifələr

## (fəlsəfi-sinergetik təhlil)



### Yeni mərhələdə tarixi seçim anı

İstənilən müstəqil dövlətin başçısı və lideri üçün təhlükəsizlik məsələsi ön sıradadır. Buna çağdaş mərhələdə şübhə edən yoxdur. Ancaq əsas məsələ bu təhlükəsizliyi necə təmin etməyin mexanizmləri ilə əlaqəlidir. Əgər hər hansı prinsipial səhv olarsa, ölkənin təhlükəsizliyi ciddi riskə düşər. Bu isə bütünlüklə siyasətin strategiyasını dəyişməyi tələb edir. Yeni məsələ sadəcə, ölkəni təhdidlərdən qorumaqla, məhdudlaşmır – tam olaraq siyasi fəaliyyətin strategiyası dəyişir. Konkret isə dövlət inkişaf paradiqmasından müharibəyə hazırlıq paradiqmasına keçid etməyə məcbur qalır. Əsas hədəf kimi, daim xarici düşmənlərə qarşı hansısa tədbirlərin görülməsi seçilir. Bu da tədricən ictimai şüurda insanların həmişə ola biləcək təhlükələrə qarşı psixoloji hazırlanması məsələsini aktuallaşdırır. Belə bir prosesin tədricən cəmiyyətin bütün kəsimlərinin psixoloji və sosial-mənəvi durumuna təsir etdiyi aydındır.

Təbii ki, cəmiyyətin fərdi və kollektiv səviyyədə sosial-psixoloji, ideoloji və mədəni aspektlərdə bu cür transformasiyasının dövlət quruculuğu prosesinə də ciddi təsiri olur. Konkret olaraq, toplum artıq inkişafa deyil, özünü qorumağa hədəflənir. O halda müstəqil dövlətin inkişafı istiqaməti də təhrif olunur.

Zaman isə daim tərəqqidə olmağı tələb edir. Çünki müasir tarixi mərhələnin geosiyasi, siyasi, iqtisadi və mədəni ruhu bunu tələb edir. Belə çıxır ki, hər hansı bir müstəqil dövlətdə liderin və toplumun inkişafa deyil, təhlükəsizliyə hədəflənməsi stratejidə dövlət quruculuğunda ləngimələr yarada bilər. Lakin o da faktdır ki, təhlükəsizlik mütləq təmin edilməlidir. Məhz bu məqamda qlobal geosiyasi mənzərənin mahiyyəti və dinamikasına uyğun düzgün geosiyasi seçim etmək vəzifəsi son dərəcə aktuallaşır. Burada bir mühüm özəllik də nəzərə alınmalıdır.

Fəlsəfi, sinergetik və politoloji araşdırmlara görə, çağdaş tarixi mərhələdə ayrıca bir dövlətin deyil, dövlətlər qrupunun (kollektiv) fəaliyyəti daha çox önəm kəsb edir. Çünki hazırda qloballaşma dünya sisteminə o dərəcədə nüfuz etmişdir ki, metaforik ifadə etsək, "hər kəs hamıdan və hamı hər kəsdən asılıdır"! Rusiya kimi böyük və güclü dövlətin prezidenti açıq ifadə edir ki, "indi mütləq müstəqillik, heç kəsdən asılı olmayan sərbəstlik yoxdur – dünyada hər bir dövlət digərlərindən asılıdır və əksinə". Bu tezisi ABŞ, Avropa və Çin liderləri də doğru hesab edirlər. Deməli, müstəqil olmaq və suverenliyi saxlamaq üçün özünə sadiq, səmimi olan dövlətlər qrupunu düzgün müəyyən etməlisən. İlham Əliyev bu seçimin anonsunu vermişdir!

Azərbaycan Prezidenti bütün dünyaya açıq və qətiyyətlə bəyan etmişdir: "Azərbaycan birmənalı olaraq Türk dünyası ailəsinə daxildir!" Onun siyasətində bu real fakt prioritetdir! Burada biz cənab Prezidentin təbirincə deyə bilərik "...və Nida"

Azərbaycan Respublikası Prezidentinin bu tarixi qərarının (daha doğrusu, seçiminin) dərin, geniş, mədəni və elmi əsasları mövcuddur. Bu tezisin işığında I məqalədə yeni tarixi mərhələdə qlobal kontekstli seçimin edilməsinin fəlsəfi-sinergetik təhlili üzərində bir qədər geniş dayanaq.

### Təhlükəsizliyin yeni formulu

Prezident İlham Əliyevin andiçmə nitqinin məntiqinin ana xəttini təşkil edən çox vacib bir məqam var. Bu, Azərbaycanın qədəm qoyduğu yeni tarixi mərhələdə inkişaf fəlsəfəsini davam etdirmək və hətta onu çevik transformasiya edə bilən sistem kimi daha da təkmilləşdirməklə bağlıdır. İlham Əliyevin nitqinə bu səbəbdən çox ciddi surətdə təhlükəsizlik məsələsindən başlaması təsadüfi deyildir. Lakin burada bir dərin və incə çalar mövcuddur. Yeni Azərbaycan Prezidenti yalnız davamlı inkişaf çərçivəsində təhlükəsizliyi strateji prioritet istiqamət kimi görür. Təhlükəsizliyin təmini bu yanaşmada vacibdir, dövlətçilik baxımından olduqca əhəmiyyətlidir, eyni zamanda, bu, mütləq surətdə davamlı inkişaf paradiqması daxilində reallaşmalıdır. Müstəqil dövlətçilik üçün həmin məna çaları prinsipial əhəmiyyət kəsb edir. Prezidentin arqumentlərinə baxaq.

İlham Əliyev nitqində demişdir: "Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik". Aydın görünür ki, Azərbaycan Prezidenti ərazi bütövlüyünün təmininin, yəni, faktiki olaraq milli ideyanın yerinə yetirilməsinin təməlini siyasi, iqtisadi, geosiyasi və digər sferalarda güclü Azərbaycanın qurulmasının təşkil etdiyini diqqətə çatdırmışdır. Dövlət başçısı bununla artıq arxada qalmış mərhələdə də aparıcı və müəyyənedici prosesin inkişaf paradiqması ilə bağlı olması fikrini söyləmişdir.

Bir qədər sonra ifadə etdiyi fikirlərdə isə İlham Əliyev inkişaf paradiqmasının davamlı, məntiqi, siyasi və strateji baxımdan ardıcıl reallaşdırılmasında liderin siyasi iradəsi, yüksək zəkası və sarsılmaz qətiyyətinin xüsusi rol oynadığına diqqət yönəltmişdir. Xüsusi olaraq vurğulamışdır ki, "Biz heç kimdən heç nə xahiş etmirik. Mən 20 ildən çoxdur ki, prezidentəm, bu günə qədər heç kimdən heç nə xahiş etməmişəm, çünki buna ehtiyac da olmayıb. Biz özümüzü tam təmin edən ölkəyik". Hansı dövlətlər müasir mərhələdə özünü tam təmin etməyə nail ola bilər? Ancaq və ancaq bütün gücünü inkişafa yönəldən müstəqil dövlətlər! Azərbaycan Avrasiya məkanında bu keyfiyyətə malik nadir ölkələrdəndir!

Bu siyasətin də müxtəlif aspektlərdə dividendləri olur. İlham Əliyevin həmin dividendlər sırasında daxili və xarici siyasətin harmoniyasına diqqət çəkməsi heç də təsadüfi deyildir. Çünki bu məqam birbaşa şəxsi marağa deyil, dövlətçiliyə xidmət edir. Azərbaycan lideri çox aydın tərzdə ifadə etmişdir: "Biz ikitərəfli formatda əməkdaşlığın tərəfdarıyıq və xarici siyasətimiz də buna hesablanıb - bərabərhüquqlu münasibətlər, bir-birinə hörmət, bir-birinə, necə deyərlər, xoş münasibət, bir-birinin işinə qarışmamaq. Bu, bizim prinsiplərimizdir və bu prinsipləri biz diktə etmişik, bunları qəbul etdirə bilmişik. Çünki xarici siyasət, – bunu hamı bilir, – daxili siyasətin davamıdır. Ona görə bundan sonra da xarici siyasətimiz çox aydın olacaq, açıq olacaq və bu gün dünya ictimaiyyəti bizim siyasətimizi bəyənir və dəstəkləyir".

Bütün bunların yekun nəticəsini, yekun tezisini Prezidentin ifadə etdiyi kimi, "dinamika var, inkişaf var və ən önəmlisi, gözəl perspektivlər var". Deməli, Azərbaycan yeni tarixi mərhələyə yüksək inkişaf dinamikası və gözəl perspektivlərlə qədəm qoyur. Prezident dövlət quruculuğunun strateji kontekstində hansı məqamları nəzərdə tutur?

### Türk dünyası ailəsində inkişaf

Yuxarıdakı təhlildən belə alınır ki, Azərbaycan Prezidentinin Türk dünyasını prioritet kimi qəbul etməsi dövlətçiliyin dərin və əhatəli inkişaf prinsipləri ilə sıx bağlıdır. Bu, sadə seçim deyildir. Yalnız etnik-mədəni faktorlarla izah oluna bilməz. Ön sırada müstəqil milli dövlətçiliyin davamlı və sabit inkişafını təmin etmənin beynəlxalq miqyasda struktur və funksional şərtlərini müəyyən etmək vardır. Həmin şərtlər ən ümumi miqsyada Ulu öndərin "bir millət, iki dövlət" kəlamının ideya-mənəvi və mədəni potensialından qaynaqlanır.

Məlumdur ki, bu formulu ilk dəfə Ulu öndər keçən əsrin 90-cı illərində özünün verdiyi məzmunda siyasi leksikona daxil etmişdir. Bu, real olaraq müasir tarixi mərhələdə Azərbaycanda perspektivli, qalıcı və daim inkişaf edə biləcək, təhlükəsizlik şəraitində mövcud olan müstəqil dövlət qurmaqla birbaşa bağlıdır. Hətta strateji hədəf bununla bağlıdır. Heydər Əliyev müstəqil dövlət quruculuğunun strategiyasını "bir millət, iki dövlət" düsturu kontekstində müəyyən etməklə XX əsrdə Azərbaycanın müstəqil dövlət qurmaq xəttinin acı təcrübələrini nəzərə alaraq yeniləşmişdir.

Mən deyərdim ki, Ümummilli lider hətta daha qədimlərdə Azərbaycan dövlətçiliyində özünü göstərmiş çoxlu sayda faktoru kompleks halında diqqətə almışdır. Məsələn, hansı səbəblərdən Azərbaycanın indiki siyasi-coğrafi və mədəni məkanında meydana gəlmiş dövlətlər süqut etmişlər? Onların bir neçəsinin ömrü tarixi mövcudluq baxımından hətta niyə çox az olmuşdur? Azərbaycanda imperiya dövləti ilə respublika dövləti arasındakı fərqlər müstəqilliyin təmini baxımından necə olmalıdır? Azərbaycan xarici siyasət strategiyasının daim uğurlu olması üçün hansı məqamları önə çəkməlidir? Nəhayət, konkret olaraq Şərqin ilk demokratik respublikası olan ADR hansı səbəblərdən çox tez süqut etdirildi?

Digər suallar da vardır. Lakin vurğulananlardan aydın olur ki, müasir mərhələdə Azərbaycanın müstəqil dövlət olması üçün quruculuğun strateji prinsipləri yenilənməlidir. Məhz bu aspektdə "bir millət, iki dövlət" əsl xilaskarlıq formuludur!

Həm də ona görə ki, onun başlıca ideya potensialı elə müəyyən olunmuşdur ki, faktiki olaraq bir millətin iki dövlətindən həmin millətin çox sayda dövlətinin əməkdaşlıq fəlsəfəsinə keçmək mümkündür. Həmin dövlətlərin sayının 5, 6, 7 və ya daha çox olması prinsipial rol oynamır. Nəyə görə?

Çünki "bir millət, iki dövlət" formulu saya, yəni kəmiyyətə görə məzmunlaşmamışdır: burada aparıcı ideya əməkdaşlığın elə qurulmalıdır ki, bir millət də olsa, dövlətlərin müstəqilliyi, suverenliyi, eyni hüquqa malik olmaları, beynəlxalq hüquq qarşısında eyni dərərəcədə məsuliyyət daşımaları və birgə harmonik inkişafı təmin olunsun! "Bir millət, iki dövlət" düsturunun (və kəlamının) müstəqil dövlətlər arasında əməkdaşlığı qalıcı və perspektivli etməsi və bu keyfiyyətinə görə digər əməkdaşlıq modellərindən müsbət mənada fərqlənməsi vurğulanan ideya özəlliyi ilə əlaqəlidir!

Beləliklə, "bir millət, iki dövlət" müdrik kəlamı ümumilikdə, türk dövlətlərinin müstəqil dövlətlər kimi əməkdaşlıq fəlsəfəsinin kökündə dayanır. Bu, həqiqətin digər aspekti hər bir türk dövlətinin regional və qlobal miqyaslarda müstəqillik və suverenliyin təmin edilməsi şərti ilə mövcud olma fəlsəfəsi ilə sıx bağlıdır. Burada söhbət faktiki olaraq "bir millət, iki dövlət" formul-vizyonun kontekstində türk dövlətlərinin birgə müstəqil inkişaf etmək konsepsiyasından gedir. TDT-nin fəaliyyətinin və inkişafının mərkəzi müddəasını bu anlamda məhz "bir millət, iki dövlət" kəlamı və onun genişlənmiş mənası təşkil edir.

Bütün bunlardan ümumi xarakterli bir məntiqi qənaət əldə etmək olar: Prezident İlham Əliyevin yeni tarixi mərhələdə Türk dünyasını ailə elan etməsi və TDT-nin gücləndirilməsinin başlıca xətt olduğunu bəyan etməsi tam əsaslıdır, ciddi arqumentlərə söykənir.

### Geosiyasi seçimin "7 təməl arqumenti"

Vurğulanan səbəblərdən, müstəqil milli dövlətçiliyin davamlı və sabit inkişafını təmin etmənin beynəlxalq miqyasda struktur və funksional şərtləri, Azərbaycan Respublikasının milli və regional miqyaslarda reallaşan dövlət quruculuğu şərtlərinin çağdaş dövrün çağırışlarını nəzərə alaraq qlobal miqyasa proyeksiyası (yayılması, genişlənməsi, praktiki reallaşması) kontekstində dərk edilməlidir. Burada isə Prezident İlham Əliyevin dəfələrlə ifadə etdiyi başlıca faktorlar mövcuddur.

Onlar Azərbaycanın müstəqilliyi, suverenliyi və milliliyinin təmin edilməsi fonunda bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq formatı daxilində beynəlxalq hüquq normalarına ciddi əməl olunması şəraitində bir neçə dövlətin "koinkişafı" (birgə tərəqqisi) şərti ilə əlaqəlidirlər. Bu prinsiplər Türk Dövlətləri Təşkilatının başlıca fəaliyyət prinsipləridir. Buna görə TDT digər beynəlxalq təşkilatlardan öz potensialı və inkişaf imkanları ilə fərqlənir. Prezident İlham Əliyev həmin potensialın və inkişaf imkanlarının konkret faktorlarını ndiçmə nitqində dəqiq ifadə etmişdir.

Birincisi, Türk dünyası "böyük coğrafiyadır, böyük ərazidir". İkincisi, "böyük hərbi gücdür". Üçüncüsü, "böyük iqtisadiyyatdır". Dördüncüsü, "zəngin təbii sərvətlərdir". Beşincisi, "nəqliyyat yollarıdır". Altıncısı, "gənc və dinamik artan əhalidir". Yeddincisi, "bir soydan, kökdən olan xalqlardır". Bunlara şərti olaraq Prezident İlham Əliyevin türk birliyini əsaslandıran "7 təməl arqumenti" deyək!

Onların hər birinin ayrıca fəlsəfi-sinergetik təhlilinə böyük ehtiyac vardır. Çünki o halda Azərbaycan Prezidentinin dərin, ədalətli və geniş təhlil əsasında vurğulanan strateji xarakterli seçimi etdiyinə tam əminlik yaranır. Eyni zamanda, buradan "bir millət, iki dövlət" kəlamının fəlsəfi kontekstində tükənməz idraki, siyasi və dövlətçiliyin uğurlu inkişafı potensialının mühüm cəhəti aydın olur.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

Bizə yazırlar

# Dünyadan gələn öyünc nidası

Növbədənkənar prezident seçkilərində İlham Əliyevə inamını ifadə edən xalqımız bütövləşmiş Azərbaycanın tarixində yeni səhifə açdı. Bu qələbə yalnız ölkə daxilində deyil, dünyanın dörd tərəfində yaşayan həmyerlilərimiz tərəfindən böyük coşqu ilə qeyd olunur. Xaricdə yaşayan həmvətənlərimizdən XQ-nin elektron poçtuna daxil olan məktublarda həmin duyğular ifadə olunub.

**Türkiyə, Ankara şəhəri**

Qardaş Türkiyənin müxtəlif şəhərlərində yaşayan və 7 fevral seçkilərində fəal iştirak edən soydaşlarımız birmənalı olaraq İlham Əliyevi dəstəkləyiblər. Bu barədə fikirlərini bölüşən Türkiyədəki Azərbaycanlı Elm Adamları Dərnəyinin təşəbbüs qrupunun üzvü, Bilkənd Universitetinin professoru Əmirulla Məmmədov yazır ki, seçkilər Türkiyədə yaşayan azərbaycanlı ziyalıların xüsusi fəallığı ilə müşayiət olunub:

"2024-cü ilin ilk günlərdən bilirdik ki, Azərbaycanın işıqlı gələcəyini təyin edən hadisələrə şahiqlik edəcəyik. Bu sırada növbədənkənar president seçkiləri ayrıca önəm daşıyırdı. Biz, Türkiyədə yaşayan azərbaycanlı alimlər 7 fevral seçkisində həvəslə iştirak etdik. Həmin günü özümüzü ruhən Şuşada, Xankəndidə, Xocalıda, Laçında hiss etdik".

**ABŞ, Boston şəhəri**

"Bu, hamımızın ürəyincə olan xoş xəbərdir. Fevralın 7-də Azərbaycan xalqının İlham Əliyevi yenidən prezident seçməsi gələcək inkişafa və tərəqqiyə gedən yolumuzda atılan addımdır".

ABŞ-ın Boston şəhərində yaşayan Nərgiz Məmmədova sevincini belə bölüşür. Boston Tifts Medikal Mərkəzində biokimyaçı işləyən Nərgiz xanım yazır ki, bu qələbə Xalq–Lider birliyinin Azərbaycanı daha böyük uğurlara aparacağının müjdəçisi oldu. "İlham Əliyevin seçkidəki möhtəşəm qələbəsi münasibətlə keçirdiyimiz bayram mərasimində milli müsiqimiz səsləndirildi. Amerikalı dostlarımız, eləcə də Banqladeş, Rusiya, Ukrayna, Bolqarıstan, İran, Türkiyə, Çin və başqa ölkələrdən burada yaşayan nümayəndələr sevincimizə şərik oldular", – deyə N.Məmmədova məktubunda qeyd edib.

**Gürcüstan, Tbilisi şəhəri**

Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzovun məktubunda oxuyuruq:

"Keçən ilin sentyabrın 19-da başladılan və cəmi 23 saat davam edən antiterror tədbirindən sonra növbədənkənar prezident seçkiləri ölkənin və çəmiyyətin tarixində yeni mərhələ deməkdir. Dünya düzənində layiqli yerini tutmuş Azərbaycan, həmçinin beynəlxalq siyasətin koordinasiya sistemində mühüm rol oynayır. 2024-cü il fevralın 7-də Azərbaycan vətəndaşı özünün Konstitusiya hüququndan istifadə etdi və İlham Əliyevi yenidən prezident seçdi. Bu qələbənin qürurunu Gürçüstandakı bütün azərbaycanlılar da yaşayırlar. Biz əminik ki, Azərbaycan bundan sonra da inamla irəliləyəcək, inkişaf edəcək, yeni-yeni uğurlara imza atacaq. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müdrik və qətiyyətli siyasəti ilə Azərbaycan Cənubi Qafqazın ən qüdrətli dövləti olacaq".

***Təqdim etdi:***
***Namiq QƏDİMOĞLU***
***XQ***

# Qələbələr yeni ilham mənbəyidir

**Azərbaycan xalqı fevralın 7-də növbədənkənar prezident seçkilərində milli həmrəylini və birliyini nümayiş etdirdi. Əslində, bu, üç il əvvəl Zəfərimizlə bitmiş Vətən müharibəsində dünyaya nümunə olan Xalq–Lider vəhdətinin bir növ davamı idi. Xalqımız İlham Əliyevi yenidən 7 il müddətinə Prezident seçməklə ona yüksək etimadını göstərmiş oldu.**



Ata vəsiyyətini yerinə yetirən, Qarabağı və ətraf rayonları işğaldan bütünlüklə azad edən, separatizmin kökünü kəsən, nəhayət, fevralın 7-də Xankəndidə ailə üzvləri ilə birgə səs verən İlham Əliyev bu jesti ilə xalqının layiqli övladı, sevimli lideri olduğunu bir daha, həm də əyani şəkildə nümayiş etdirdi. Bununla, o, adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırdı.

Ölkəmizin bundan sonra daha sürətlə inkişaf edəcəyinə əminəm. Biz sənət adamlarının qəlbi fərəh hissi ilə doludur və bu duyğu bizi yeni əsərlər yaratmağa ruhlandırır. Düşünürəm ki, hər bir azərbaycanlı öz işi və peşəsi, qazandığı uğurları ilə Vətənin tərəqqisinə öz töhfəsini verəcəkdir.

***Elçin ORUCOV,***
***rəssam, Əməkdar mədəniyyət işçisi***

# Xarici siyasətimiz qlobal arenada

(əvvəli 1-ci səhifədə)

Son illərdə isə Azərbaycanın xarici siyasəti artıq regionun hüdudlarından kənara çıxıb. Ölkəmiz hazırda dünyada orta güc hesab olunan ölkələr kateqoriyasına daxildir. Bu kateqoriyaya Birləşmiş Ərəb Əmirlikləri, İsrail və sair dövlətlər də daxildir. Azərbaycanın qarşıdakı dövrdə xarici siyasət istiqamətləri Prezident İlham Əliyevin fevralın 14-də keçirilən andiçmə mərasimindəki proqram xarakterli nitqində aydın ifadə olundu. Dövlətimizin başçısı bildirdi ki, biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan–Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ, demək olar ki, gündəlikdə durmur: "Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən, iqlim dəyişikliyi ilə əlaqədar.



Nəzərə alsaq ki, COP29-un evsahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik. Bunu neokolonializmin başında duranlar da bilsinlər ki, onlar əbəs yerə bizimlə soyuq savaşa çıxıblar. Biz geridə qalmayacağıq, biz heç vaxt müdafiə mövqeyində olmamışıq. Bizə qarşı atılan addımlara adekvat addım atacağıq və bizə qarşı məkrli planlar hazırlayanlar, əminəm ki, peşman olacaqlar".

Prezidentin dediyi "Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və artıq bunu gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni, gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayrıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayrıcı xətlərin əleyhinəyik. Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq!" – sözləri də xüsusi önəmə malikdir.

Ehtimal etmək olar ki, dövlətimizin başçısı 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində postsovet məkanında xeyli populyar olan Avropa İttifaqına inteqrasiya ilə bağlı məsələni nəzərdə tutur. Xatırlatmaq yerinə düşər ki, həmin ideya o illərdə Türkiyədə də xeyli tərəfdar qazanmışdı. Hətta, Türkiyədə Avropaya inteqrasiya üzrə xüsusi nazirlik formalaşdırılmışdı. Türkiyə hökumətində Avropa İttifaqına üzvlük prosesini koordinasiya etmək üzrə ayrıca nazir var idi. Ancaq Türkiyənin üzvlüyü prosesində müsbət irəliləyişin olmaması, üzvlük prosesinin uzun illər ərzində, necə deyərlər, yerində sayması Ankaranın öz mövqeyinə yenidən baxmasına gətirib çıxardı. Bunun nəticəsində nazirlik 2018-ci ildə ləğv olundu və onun səlahiyyətləri Xarici İşlər Nazirliyinə verildi.

Həmçinin Türkiyə ilə bağlı yazdıqlarımızı bəzi postsovet ölkələrinə də aid etmək olar. 20 ilə yaxındır Aİ-yə üzv olmaq istəyən Gürcüstana üzvlük statusu yalnız ötən ilin dekabrında verilib. Ondan öncə isə həmin statusu 2022-ci ilin iyununda Ukrayna və Moldova alıb. Onların üzv olub-olmayacaqları isə hələ qeyri-müəyyəndir. Bu mənada artıq qeyd etdiyimiz kimi, dünyada orta güc hesab olunan Azərbaycan heç hara can atmır. Daha doğrusu, biz o yerə can atırıq ki, orada bizi gözləyirlər. Bu kontekstdə cənab İlham Əliyev yeni dövrdə xarici siyasətin üç əsas istiqamətini göstərdi ki, bunlardan biri Türk Dövlətləri Təşkilatıdır. Qeyd etdi ki, bizim ailəmiz Türk dünyasıdır: "Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Yeni dövrdə xarici siyasətin ikinci istiqaməti İslam Əməkdaşlıq Təşkilatıdır. Bu həmin təşkilatdır ki, həmişə – həm işğal dövründə, həm işğaldan sonra, həm də Vətən müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Prezident qeyd etdi ki, Azərbaycan bu təşkilatın dəyərli üzvüdür. Azərbaycanda İslam dininə və bütün dinlərə olan münasibət bu təşkilat tərəfindən yüksək qiymətləndirilir. Bu təşkilat bütün müsəlman ölkələrini birləşdirir. Əlbəttə ki, bu təşkilatda bizim təşəbbüslərimizin qəbul edilməsi və dəstəklənməsi xüsusi məna daşıyır.

Üçüncü istiqamət isə Qoşulmama Hərəkatıdır. Azərbaycanın təşkilata sədrlik etdiyi 2019-2022-ci illərdə (sonradan sədrlik müddətimiz bir il də uzadılıb) Prezidentin qeyd etdiyi kimi, Qoşulmama Hərəkatı yeni müstəviyə qədəm qoyub: "Baxmayaraq ki, biz sədrliyi artıq təhvil vermişik, biz üçlükdə təmsil olunuruq. Qoşulmama Hərəkatı bizim sədrliyimiz dönəmində yeni müstəviyə qədəm qoyub, əlbəttə, imkan verə bilmərik ki, müəyyən dərəcədə tənəzzülə uğrasın. Əminəm ki, bu, olmayacaq. Biz isə öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, Qoşulmama Hərəkatı bir təsisat kimi daha da güclənsin. Əgər üzv ölkələrin qarşısında duran problemlərin həllinə kömək göstərmək lazım olarsa, əlbəttə, biz bunu edəcəyik".

Beləliklə, ikitərəfli formatda əməkdaşlığın tərəfdarı olan, xarici siyasətini bərabərhüquqlu münasibətlərə, bir-birinə hörmət və daxili işlərə qarışmamaq prinsipi üzərində quran Azərbaycan Respublikası yeni dövrdə qlobal arenaya orta güc kimi daxil olmaqdadır. İqlim dəyişikliyi məsələləri üzrə dünya miqyasında ən böyük beynəlxalq konfransa – COP29-a evsahibliyi etməyimiz də bunun bir göstəricisi hesab olunmalıdır.

Həm COP29, həm də Azərbaycanın evsahibliyi etdiyi və edəcəyi digər qlobal tədbirlər ölkəmizin dünyada nüfuzunun böyük dərəcədə artdığını göstərir. Azərbaycan artıq regional çərçivədə fəaliyyət göstərən dövlət deyil, dünyanın müxtəlif bölgələrində fəal əməkdaşlığı təşviq edən, etibarlı tərəfdaş kimi qəbul olunan, qlobal problemlərin həllində aktiv iştirak edən və buna əməli töhfələr verən ölkə kimi qəbul olunur. Bu nüfuzun formalaşmasının isə əhəmiyyətli tarixçəsi var. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə ölkəmiz dünyanın müxtəlif regionlarını bir araya gətirdi və fikir birliyini inkişaf etdirdi. Ayrı-ayrı ölkələrin və bütövlükdə, dünyanın üzləşdiyi, müasir terminlə desək, çağırışların aradan qaldırılmasına töhfələr verdi. Nəticədə ölkəmizin dünyadakı mövqeləri möhkəmləndi. Ölkəmiz qlobal səviyyədə yardımsevər, sülhpərvər siyasət yürüdən etibarlı tərəfdaş imicini qazandı.

COP29 isə dünyanın gündəliyində dayanan, ən mühüm problemin həllinə həsr olunan qlobal tədbirdir. Azərbaycanın bu tədbirə evsahibliyi etməsinin dünya ölkələri tərəfindən dəstəklənməsi ölkəmizin səmərəli, çoxtərəfli danışıqlar aparmaq, dünyanın ayrı-ayrı regionlarında fərqli baxışları bir araya gətirmək, konsensus əldə etmək, qlobal problemlərin həllinə töhfə vermək bacarığının və güclü potensialına olan inamın nəticəsidir.

**Mövzu ilə bağlı söhbətləşdiyimiz politoloq Yeganə Hacıyeva bildirdi ki,** Azərbaycan 1990-cı illərdən etibarən aid olduğu regionda torpaqlarının işğalından



azad olunması ilə başlayan prosesi regionun sülh və sabitliyi üçün platforma kimi istifadə olunmasına qədər inkişaf etdirdi. Nəticədə Cənubi Qafqazın ən güclü ölkəsi və regionda sabitliyin və əmin-amanlığın təminatçısı oldu: "Azərbaycanın xarici siyasətinin inkişaf istiqamətlərini üç mərhələyə bölmək olar. 1990-cı illərdən başlayaraq ölkəmiz dünyaya açıldı. Vaxtilə ulu öndər Heydər Əliyev demişdi ki, Azərbaycan dünyaya Günəş kimi doğacaq. 2000-ci illərdən başlayaraq Azərbaycan regional miqyasda güclü dövlətə çevrildi. Ölkəmiz daha sonrakı mərhələdə dünyanın müxtəlif regionları arasında gücü ilə seçilən dövlət oldu. Hazırkı mərhələdə isə ölkəmiz qlobal oyunçudur. Biz bunu birmənalı şəkildə bəyan etməliyik. Çünki rəsmi Bakı, sadəcə, məxsus olduğumuz siyasi coğrafiyada deyil, digər regionlarda da sülh və sabitliyə birbaşa təsir edəcək proseslərə töhfə verir. Həmin prosesləri inkişaf etdirir. Bütün bunlar isə Ulu öndərin yuxarıda qeyd etdiyimiz fikirlərinin həyata keçdiyinin göstəricisidir".

Politoloq qeyd etdi ki, bununla belə hazırkı mərhələ Azərbaycanın xarici siyasətinin inkişaf prosesində aralıq mərhələdir. İrəlidə bizi daha böyük işlər gözləyir və biz bunun öhdəsindən gələcəyik.

*Səxavət HƏMİD*
*XQ*

---

**Siyasi replika**

# Serjiki narahat edən nədir?

## "Ən yaxşı erməni olmaq" yarışı getdikcə qızışır

**Ermənistanın sabiq prezidenti Serj Sarkisyan sükutu pozub. Aylardan bəridir ölkəsində baş verən proseslərə, o cümlədən, Bakı–İrəvan münasibətlərinə dair hansısa fikir bildirməyən Serjik dilə gəlib. Onu dilləndirən nədir? Əlbəttə ki, Ermənistanın hazırkı hakimiyyətini ittiham etməkdən başqa heç nə. Qarabağ cəlladı yenə öz "ampluasına" sadiqdir.**

Bəli, S.Sarkisyan Azərbaycan–Ermənistan şərti sərhədində yaşanmış hərbi insidentə münasibət bildirib və deyib ki, belə hallar sərhədin digər yerlərində də qeydə alınacaq. Görəsən, eks-prezidentin əminliyi nədən qaynaqlanır?

Əslində, suala cavab vermək çətin deyil. Məsələ burasındadır ki, Sarkisyan tipik erməni xəstəliyinin daşıyıcısıdır.

Təsəvvür edin, Azərbaycan hərbçilərinə Ermənistan tərəfdən snayper atəşi açılıb, bir sərhədçimiz yaralanıb. Əlbəttə, cavab atəşi nəticəsində qarşı tərəfdən dörd nəfər cəhənnəmə vasil olub. Bu, öz yerində. Başlıca məqam ondadır ki, Sarkisyan, faktiki olaraq, eyni halın təkrarlanacağını bildirirsə, deməli, sözügedən xəstəliyin simptomlarından yaxşı xəbərdardır.



Bəli Sarkisyan onu da yaxşı bilir ki, çaqqallar bir yerdə dayanan deyillər. Nə qədər olmasa, uzun müddət ətrafına yığdığı sürüyə rəhbərlik edib, xislətlərinə bələddir. O sürünün təmsilçilərinin sayının orduda daha çox olduğundan da məlumatlıdır. Axı, Serjik həm də Ermənistanın müdafiə naziri postunu tutub. Onun yerli jurnalistlərlə söhbətində başqa nələri dilə gətirdiyindən söz açacağıq.

Hələlik isə deyək ki, Azərbaycan hərbçilərinə atəşin hansısa könüllü birləşmənin təmsilçiləri tərəfindən açıldığı bildirilir. Əlbəttə, bu, yalan da ola bilər. Hər halda, Ermənistan mediasının yaydığı məlumata istinad edirik. Düşünürük ki, belə məlumatın yayılması ölkə hakimiyyətinin məsuliyyəti öz üzərindən atmaq istiqamətindəki uğursuz gedişidir. Uğursuzdur, ona görə ki, ortaya elementar sual çıxır: könüllülərin sərhəddiki postlarda və səngərlərdə nə işləri var idi? Ola bilməz ki, buna hansısa nəzarət olmasın...

Belə nəticəyə gəlirik ki, sabah həmin "könüllülər" Azərbaycan ərazisinə hücuma keçə və Ermənistan hakimiyyəti onların ölkənin ordusuna aidiyyatının olmadığını vurğulaya bilər. Yəni, erməni iqtidarının bu yolla özünün işğalçı olmadığını göstərməsi mümkündür. Axı, həyasızlıq erməni iqtidarının mahiyyətinə hakim kəsilmiş "xarakterdir".

Yeri gəlmişkən, vaxtilə Qarabağı da "erməni könüllüləri ələ keçirmişdilər". Belə bir fikir xeyli tirajlanırdı. Böyük pafosla bildirilirdi ki, artıq canını tapşırmış separatçı "Dağlıq Qarabağ Respublikası"nın könüllü dəstələri, məsələn, "qədim erməni yurdu Şuşanı, Laçını, Kəlbəcəri azad ediblər". Belə bivec təqdimatlar var idi.

Sonradan həmin "könüllülər" hamısı müharibə qəhrəmanı kimi Ermənistan hakimiyyətində təmsil olundular. Yəni, necə deyərlər, xoruzun quyruğu göründü. "Quyruğu görünən xoruzların" ümumi adı da var idi – Qarabağ klanı. S.Sarkisyan da həmin klanın üzvü idi. O Sarkisyan ki, Xocalıda dinc azərbaycanlıların başına gətirilən olmazın müsibətlərin təşəbbüskarlarından və icraçılarından olmuşdu. O Sarkisyan ki, təbiətinə hakim kəsilmiş xəstəliyi bu gün də ortaya qoymaqla məşğuldur və bilir ki, erməni cəmiyyəti özünün, koçaryanların, vazgenlərin və digərlərinin səpdikləri avatürizm toxumları ilə qidalanır. Bu "qidalanma" isə orqanizmi dinc saxlamır. Mütləq hansısa qeyri-ordinar hərəkətlərə sövq edir. Fevralın 13-dəki insident həm də ipə-sapa yatmazlıqdan irəli gəlir.

Sarkisyan dərk edir ki, baş nazir Nikol Paşinyan son dövrlər, belə demək mümkünsə, əsl erməni olmaq istəyir. Yəni, Nikol qeyri-konstruktiv mövqedədir, sülhdən yayınır, anti-Azərbaycan mövqeyi tutur, beynəlxalq miqyasda ölkəmizə qarşı antipatiya yaratmağa girişir. Deməli, Nikolu gözdən salmaq lazımdır. Sarkisyan çalışır ki, Paşinyan əsl erməni olmaq yarışında önə çıxmasın. Aylardan bəridir ki, qoruduğu susqunluğu məhz buna görə pozmaq qərarına gəlib. Görək necə?

S.Sarkisyan sülh müqaviləsinin imzalanmasını vaxtilə ikinci kapitulyasiya kimi dəyərləndirdiyini yada salır və deyir ki, Ermənistan hökumətinin iclasında müzakirə olunanalara diqqət yetirəndə, Azərbaycana daha çox məsələlərdə güzəştə gediləcəyini anlayıb. Görəsən, Serjik nəyə əsasən bu qənaətə gəlib? Axı, Nikol, yuxarıda da bildirdiyimiz kimi, konstruktiv mövqe tutmur. Əksinə, indi Ermənistan hakimiyyəti S.Sarkisyanın dövründə olduğu kimi çeşidli manipulyasiyalara əl atır. Paşinyan hər şeyi "mənimsəyib", qalıb Sarkisyan kimi tualet adı ilə danışıqlar masasından qaçmaq. Bu gedişlə onu da öyrənəcək.

Görünür, Serjik Nikolun tez bir zamanda "tualet diplomatiyasının" sirlərinə də bələd olacağının işartılarını görür. Bir sözlə, eks-prezident Paşinyanın və komandasının siyasi spekulyasiya baxımından onu geridə qoymasına qısqanclıqla yanaşır. Qısqanclıqla yanaşır və bildirir ki, Azərbaycan bundan sonra daha çox şeylər əldə etməyə çalışacaq. Nə vaxtadək? Serjikin təbirincə desək, erməni xalqı, heç olmasa, xalqın Vətənə biganə qalmayan bir hissəsi indiki hakimiyyəti devirənədək.

Göründüyü kimi, Ermənistandakı xunta rejiminin rəhbəri olmuş eks-prezident hakimiyyəti devirmək üçün açıq çağırış səsləndirir. Əlbəttə, onun belə fikirlərə baş vurması ilk dəfə deyil. Onun sonuncu diqqətə çatdırdığımız fikirlə erməni xalqını təhqir etməsini bir kənara qoyaraq, başqa bir məqamı vurğulayaq. Maraqlıdır ki, Serjik hər dəfə belə ritorikaya üstünlük verəndə, Paşinyan düyməni basır. Nəticədə Sarkisyanın hakimiyyətdə olduğu dövrdə etdiyi talanlar, dövlət əmlakını mənimsəmə halları üzə çıxarılır. Hətta, Serjikin həbsi məsələsi də gündəmə gəlir. Çox güman ki, Nikol yenə də hərəkətə keçib həyasızlıqda onu qabaqlamaq istəyən Sarkisyana yerini göstərəcək.

*Ə.RÜSTƏMOV*
*XQ*

---

# Türk dünyası dostluq və qardaşlıq ailəsidir

**Prezident İlham Əliyev fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində bildirib ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatına (TDT) üzv olan bütün ölkələrlə qardaşlıq münasibətləri var və Bakının siyasətinin əsas istiqamətlərindən biri də TDT-ni gücləndirməkdir. Xalqımızın sevimli liderinin bu bəyanatı bütün türk dünyasında sevinc və dərin razılıq hissi ilə qarşılanıb.**

BDU-nun Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov ilə söhbətimiz məhz bu aktual mövzu ətrafında oldu. Professor əvvəlcə müasir dünyada türk xalqları və dövlətlərinin sıx birliyi və həmrəyliyinin həyati əhəmiyyəti barədə söz açdı:

– Möhtərəm Prezidentin türk dövlətlərinin gələcəyi ilə bağlı olduqca dəyərli fikirləri, hər bir ziyalı kimi, məni də sevindirdi. Dövlətimizin başçısı bildirdi ki, türklərin tarixən yaşadıqları böyük coğrafi ərazidə zəngin təbii sərvətlər, nəqliyyat infrastrukturu mövcuddur. Burada insan resurslarının imkanları da genişdir. Belə ki, əhali gəncdir və sürətlə artır. Bu insanlar bir soydan, eyni kökdən olan xalqlardır.

Cənab Prezident sonra özü səsləndirdiyi belə bir sualı cavablandırdı: "Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, TDT qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Bəli, Prezident hər şeyi çox gözəl və yerli-yataqlı izah etdi. Düşünürəm ki, artıq bütün səviyyələrdə qol çırmayıb real iş görməyin vaxtı yetişib. Təkcə dövlət və hökumət rəsmiləri deyil, hər bir alim, mədəniyyət xadimi, şair və yazıçı, jurnalist, bir sözlə, hər kəs bu sahədə töhfəsini verməyi özünə mənəvi borc bilməlidir.

Bu, böyük bir tarixi şansdır, onu qaçırmaq olmaz. Ləng tərpənsək, fürsəti fövtə versək, gələcək nəsillər bunu bizə bağışlamaz.



**– Sizcə, türk xalqlarının işdə, əməldə birliyinə nail olmaq üçün hansı konkret işlər görülməlidir?**

– Fikrimcə, sıx siyasi əlaqələrlə paralel olaraq, vaxt itirmədən iqtisadi və ticari əməkdaşlığın gücləndirilməsinə nail olunmalıdır. Orta Asiya dövlətlərinin mal və əmtəələrinin Azərbaycan ərazisindən qardaş Türkiyəyə, oradan da Avropa bazarına çıxaracaq kommunikasiyaların açılması hava-su kimi zəruridir.

Təbii ki, bütün bunların başında Zəngəzur dəhlizinin tezliklə fəaliyyətə başlaması vəzifəsi durur. Dəhliz bütün region xalqlarının taleyi və təhlükəsizliyi üçün etibarlı zəmin ola bilər.

Cənab Prezident onu da qeyd etdi ki, Cənubi Qafqazın əsas problemi həll edilib. İşğalçı Ermənistanın silahlı qüvvələri Qarabağdan qovulub. Təəssüflər olsun ki, regionun inkişaf perspektivlərini ermənilər və arxalarında duran destruktiv qüvvələr bloklamağa cəhd edirlər.

Hesab edirəm ki, bunlar əbəs səylərdir. Qoca Şərqin müdriklərindən biri haqlı olaraq deyib ki, dünyanın bütün qaranlıqlarının bir yanan şamın şöləsini söndürməyə gücü çatmır. Mənim qənaətim belədir ki, Zəngəzur dəhlizi Bakı və Ankaranın birgə səyləri sayəsində tezliklə açılacaq və bölgənin inkişafı üçün açar rolunu oynayacaq.

Dünya görür ki, Azərbaycan və Türkiyə regiona sülh, sabitlik və rifah gətirmək əzmindədir. Bu dövlətlərin müdrik liderləri – prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bu gün dünyanın ən xarizmatik siyasətçiləri hesab olunurlar. Onların sülh naminə atdıqları addımlar humanizm ideallarına xidmət edir. Ermənilər gec-tez bunu anlayacaqlar və sülh sazişinə razı olacaqlar.

**– Professor, siz bütün həyatınızı, demək olar ki, türk xalqlarının ədəbiyyatı və tarixinin öyrənilməsi və təbliği işinə həsr etmisiniz. Sizi bu mövzuya bu qədər dərindən bağlayan hansı hisslərdir?**

– Həqiqətən, yarım əsrdən çoxdur ki, bu sahədə çalışıram və buna görə sonsuz qürur hissi keçirirəm. Oxuyub-öyrəndiklərimdən hasil etdiyim ən böyük nəticə budur ki, türklər daim mütərəqqi sivilizasiya daşıyıcıları olublar. Onlar 6 əsrdən çox nəzarətlərində saxladıqları ölkələrdə heç vaxt ağır zorakılıqlar törətməyiblər, heç bir xalqın dininə və dilinə təcavüz etməyiblər. Bu, türklərin həm hərbi, həm də mədəni cəhətdən güclü və ədalətli insanlar olmalarından qaynaqlanır.

Məşhur türkoloq Lev Qumilyov yazırdı ki, türklər passionar xalqdır, daim inkişaf etməyə, tərəqqiyə meyillidirlər. Böyük alim həmçinin dərin qürur hissilə vurğulayırdı ki, türkləri bir xalq olaraq səciyyələndirən əsas cəhət onların yüksək mənəvi-əxlaqi keyfiyyətlərə sahib olmalarıdır.

Türklər tarix boyu 26 dövlət və imperiya qurublar. Onlarda dövlətçilik hissi daim güclü olub. Bu gün də belədir, sabah da belə olacaq. Bizim üçün haqq və ədalət hər şeyin fövqündə durur. Təsadüfi deyil ki, sayın R.T.Ərdoğanın "Dünya beşdən böyükdür!" fikri bütün dünyada müsbət əks-səda doğuraraq qanadlı ifadəyə çevrilib.

**– Azərbaycanıları türklər və digər türk xalqları ilə bağlayan mənəvi tellər çox güclüdür. Bu sahədə ömrünüz boyu əxz etdiyiniz bilgiləri tələbələrinizə, gənc nəsillərə çatdıra bilirsinizmi?**

– Yaxşı sualdır. Hamıya gün kimi bəllidir ki, tarix boyu azərbaycanlılar və türklər ən dar, çətin günlərdə bir-birlərini tək, taleyin ümidinə buraxmayıblar. Gücləri, imkanları çatdığı qədər bir-birlərinə arxa, həyan olublar.

Təkcə 1918-ci ildə unudulmaz Nuru paşanın komandanlığı ilə Qafqaz Müsəlman Ordusunun Bakını daşnaklardan qəhrəmancasına azad etməsini xatırlasaq, fikrimcə, hər şey bir daha aydın olar. Bu, əsl qardaş yardımı idi.

Türkün zəfər savaşı sayılan Çanaqqala (1915-1916) döyüşündə yüzlərlə həmyerlimiz iştirak edib, qardaş ölkənin istiqlalı yolunda canlarından keçib. Tarixdən belə misallar çox çəkmək olar.

Bu gün bu iki xalqın həqiqi qardaşlıq əlaqələri bir fenomen kimi öyrənilməyə layiqdir. Yeri gəlmişkən, 2020-ci ilin payızında, 44 günlük parlaq savaşda Azərbaycan–Türkiyə dostluğu bir daha zamanın ağır sınağından üzüağ çıxdı.

Ulularımız gözəl deyiblər: Gələcəyə ümidlə baxan xalq heç vaxt yenilməz! Şuşanın sıldırım qayalarına yüngül silahlarla, demək olar ki, əliyalın dırmaşaraq düşməni bir göz qırpımında məhv edən bütün igid əsgər və zabitlərimizin qeyrəti qarşısında baş əyirəm. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

Bir müddət əvvəl xalqımız qanlı 20 Yanvar faciəsinin 34-cü ildönümünü qeyd etdi. Orada şəhid olanlardan biri də mənim yaxın qohumum Sahib Nəsib oğlu idi. Bu azadlıq fədaisinin sinəsində düşmənin 27 gülləsinin izi qalmışdı. Sahib Mixail Qorbaçovun Bakıya yeritdiyi qaniçən əsgərlərinin güllələrini kürəyi ilə yox, sinəsi ilə qarşıamışdı.

Cəmi bir ildən sonra isə Azərbaycan xalqı müstəqilliyini bərpa etməyə nail olmuşdur. Demək istəyirəm ki, biz bir xalq və millət olaraq öz istiqlalımızı igid, vətənpərvər oğullarımızın qeyrəti, qanı-canı bahasına əldə etmişik. Azadlıq məşəlini, istiqlal və istiqbalımızı biz gələcək nəsillərə ləyaqətlə ötürməliyik.

Məhz bu fikir və ideyaları gənclərə, sevimli tələbələrimə təbliğ və təlqin etməyə çalışıram. Sağ olsunlar, onların hər biri qəlblərində ata-babalarımızdan bizə ən əziz əmanət kimi miras qalan yenilməz türk ruhunu yaşatmağa hazırdır. Mən buna bütün varlığımla inanıram.

Sonda bir daha vurğulamaq istəyirəm. Azərbaycan xalqı tarix boyu çalışıb ki, öz mənliyini, ləyaqətini, milli ruhunu qorusun. Bütövlükdə isə türk xalqlarının nicatı məhz birlik və həmrəylikdən keçir. Biz birlikdə güclüyük! Gəlin bu həqiqəti heç vaxt unutmayaq.

***Söhbəti qələmə aldı:***
***M.ABDULLAYEV***
***XQ***

# Yeni dönəmin xarici siyasət prioritetləri

## Azərbaycan Prezidenti Münxendən dünyaya vacib mesajlar verdi

**Azərbaycan Prezidenti İlham Əliyev Münxendə öz işinə başlamış Təhlükəsizlik Konfransından əvvəl bir sıra görüşlər keçirib. Dünyanın aparıcı siyasi və hərbi xadimlərini bir araya gətirən 60-cı Münxen Təhlükəsizlik Konfransında əsas diqqət iki mövzuya fokuslanıb. Bunlar Şərqi Avropa və Yaxın Şərqdəki vəziyyətdir.**



Münxen Konfransına xüsusi dəvət olunan İlham Əliyev dünən "COP mexanizmləri: Beynəlxalq iqlim diplomatiyasının perspektivləri" mövzusundakı paneldə çıxış edib.

"ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin – ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz və səmərəsiz strukturların, vəzifələrin rəsmi qaydada ləğv edilməsinin vaxtı çatıb". Qarşı tərəfin müraciətinə əsasən baş tutan görüşdə bu sözləri dövlətimizin başçısı fevralın 16-da Münxendə ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borq ilə görüşü zamanı deyib. Azərbaycan Prezidenti, həmçinin ATƏT çərçivəsində büdcə vəsaitinin daha məqsədyönlü və əhəmiyyətli layihələrə istiqamətləndirilməsinin önəmini qeyd edib. Qarabağ münaqişəsi adında problemin qalmadığını bəyan edən dövlətimizin başçısı Azərbaycanın özünün tarixi torpaqları üzərində suverenliyini və ərazi bütövlüyünü bərpa etdiyini, hazırda Bakı və İrəvan arasında münasibətlərin normallaşma prosesinin ikitərəfli dialoq formatında getdiyini də ATƏT sədrinin diqqətinə çatdırıb.

### Azərbaycanın qlobal xarici siyasəti

Azərbaycan Prezidenti İlham Əliyevin qarşı tərəfin müraciətinə əsasən Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Basso, ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn, Almaniya Bundestaqının Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı Fraksiyasının xarici, təhlükəsizlik və müdafiə siyasəti üzrə sədr müavini, Almaniya–Cənubi Qafqaz parlament qrupunun sədri Yohan David Vadeful, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Ukrayna Prezidenti Volodimir Zelenski, ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri, "Indra" şirkətinin prezidenti, idarə heyətinin sədri Mark Tomas Murtran, İraq Kürdüstan regionunun başçısı Neçirvan Bərzani ilə də görüşləri olub.

İkitərəfli görüşlərin intensivliyi və çoxşaxəliliyi Azərbaycan Prezidentinin yüksək nüfuzunun, onun şəxsiyyətinə olan hörmət və diqqətin göstəricisi sayılmalıdır.

Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın iştirakı, burada keçirilən görüşlərin çeşidi və miqyası həm də ona dəlalət edir ki, ölkəmizin xarici siyasəti artıq regional deyil, qlobal xarakter daşıyır. Əslində, perspektivə hesablanmış həmin xarici siyasətin konturlarını İlham Əliyev fevralın 14-də Prezident kimi andiçmə mərasimində hamıya bəyan etmişdi. Proqram xarakterli həmin çıxış bölgədə hələ də öz maraqlarını güdən kənar aktorlara, Azərbaycanın həm dostlarına, həm də bədxahlarına ünvanlanmış siyasi bəyanat idi:

"Əgər əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Ermənistan–Azərbaycan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ, demək olar ki, gündəlikdə durmur. Ona görə xarici siyasətimizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq, o cümlədən, iqlim dəyişikliyi ilə əlaqədar. Nəzərə alsaq ki, COP29-un evsahibi və sədri olacağıq, eyni zamanda, dünyada islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmalıyıq. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olmalıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili Yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik".

### Kənardan müdaxilə dövrü bitdi

İlham Əliyev Münxendən bütün dünyaya Azərbaycanın Cənubi Qafqazda şəriksiz geosiyasi iradə sahibi olduğunun açıq mesajını verdi. O, rəsmi Bakının Ermənistanla münasibətlərə əhəmiyyət vermədiyini ayrıca vurğulamaqla, kənar aktorların bölgəyə "nəfəsliyini" bağlamış oldu. Artıq sülhü, yoxsa savaşı seçmək Ermənistanın öz öhdəsinə buraxılıb.

Cənubi Qafqazda tamamilə yeni dövrün ayaq səsləri eşidilməkdədir. Bu dövrdə Azərbaycanın özü kimi, bölgə də irəliyə doğru rəsmi Bakının cızdığı "yol xəritəsi"ni kompas bilərək hərəkət edəcək. Bu, Azərbaycanın müstəqil, inamla apardığı və uğurla həyata keçirdiyi xarici siyasətidir.

İkinci Qarabağ müharibəsindən sonra ölkəmizin hərbi zəfərini beynəlxalq müstəvidə də möhkəmləndirən İlham Əliyevin düşünülmüş diplomatik gedişləri, qətiyyətli xarici siyasəti nəticəsində bölgədə gündəliyi müəyyən edən yenə də Azərbaycan oldu. Onu da birmənalı şəkildə deyə bilərik ki, bu gün regionda cərəyan edən proseslər, bütövlükdə, ölkəmizin milli maraqlarına tam uyğun istiqamətdədir.

Son iyirmi ildə olduğu kimi, üç il üç ay ərzində də İlham Əliyev dediyi sözünün, atdığı hər bir addımın arxasında dayandı. Cənubi Qafqazda aparıcı mövqeyə malik, söz sahibinə çevrilmiş Azərbaycanın siyasi iradəsinə kənardan heç bir qüvvə təsir göstərməyə qadir deyil. Otuz illik işğal dönəmi bir həqiqəti bütün çılpaqlığı ilə ortaya çıxardı: böyük güclər məhz güclünün sözünü eşitməyə vərdiş ediblər. Son iyirmi ildə iqtisadi, siyasi və hərbi gücünü dəfələrlə artıran Azərbaycan bölgədə özünə rəqib saya biləcəyi ikinci ölkə tanımır. Lideri ətrafında yumruq kimi birləşən xalq doğma torpağının azadlığı uğrunda müharibə aparıb və zəfər qazanaraq tarixi ədaləti bərpa edib.

### ATƏT-in Minsk qrupu bir oyun idi

Bu məqamda yaxın tarixə qısa ekskurs etməyimiz yerinə düşər. ATƏT-in Minsk qrupunun niqabı altında gizlənən Fransa, onun prezidenti, Milli Assambleyası və Senatı özünün əsl ermənipərəst simasını artıq açıq şəkildə ortaya qoymalarını unutmamışıq. Onu da yaxşı xatırlayırıq ki, Vətən müharibəsi başlanandan üç gün sonra – 2020-ci il sentyabrın 30-da Emmanuel Makron "Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" ətrafında son hadisələrə dair açıq-aydın haypərəst bəyanat verdi.

Yelisey sarayından yayılan həmin bəyanat Fransanın nəinki Minsk qrupunun həmsədri kimi neytral vasitəçilik missiyası ilə bir araya sığmırdı, üstəlik, həqiqəti təhrif edən, qərəzli bir açıqlama idi. Makron ölkəsinin öz üzərinə götürdüyü vasitəçilik missiyasını unudaraq ermənilərin yanında durdu, özünü işğalçının vəkili kimi apardı. Məhz işğalçının müdafisinə qalxan Fransa prezidentini təxribatçı bəyanatı bölgədə, eləcə də beynəlxalq miqyasda təhlükəsizliyin təmin edilməsinə deyil, 30 illik münaqişənin yenidən alovlandırılmasına hesablanmışdı. Postmüharibə dövründə Fransa prezidentinin qatı ermənipərəst, islamofob, anti-Azərbaycan və anti-Türkiyə siyasəti özünün "zirvə nöqtəsinə" çatdı.

Bakı–İrəvan münasibətləri ilə bağlı verdiyi bəyanatları, etdiyi bütün çıxışları ona dəlalət edir ki, Emmanuel Makron Fransanın ATƏT-in Minsk qrupunun həmsədri mandatını sadəcə işğalçının maraqlarını güdmək kontekstində başa düşüb və otuz il bundan əvvəl başlayan bu yanaşmaya sonadək sadiq qalıb. Minsk qrupunun yalnız fransalı həmsədri deyil, həmçinin amerikalı və rusiyalı elçilər də illərlə davam edən mənasız turist səfərləri, monitorinq adı altında "Dağlıq Qarabağ"ın status-kvosunun saxlanmasına yönəlik fəaliyyətləri ilə əsl niyyətlərini ortaya qoydular. Amma bütün diplomatik etiket və qaydaları gözləyən rəsmi Bakı özünün xarici siyasətində qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq, güc tətbiq etməmək və ya hədələməmək prinsiplərinə sadiq qaldı.

Bununla paralel olaraq avropalı və asiyalı tərəfdaşları ilə qarşılıqlı faydalı əməkdaşlığı davam etdirən Azərbaycan, ümumən, Qafqazda və Xəzər regionunda sabitliyin əldə edilməsi üçün bütün səyləri göstərdi, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verdi. Bununla kifayətlənməyən, müasir dünyanın çağırışlarına səs verən ölkəmiz çox önəmli beynəlxalq layihələrdə də iştirakdan qalmadı.

Artıq Azərbaycan tarixinin yeni mərhələsinə qədəm qoyub. Bu mərhələ yeni siyasi yanaşma tələb edir. 2024-cü il fevralın 14-də Prezident kimi andiçmə mərasimindəki çıxışında İlham Əliyev məhz bu dövrdə xarici siyasət istiqamətində yeni üfüqlərin açılacağına əminliyini ifadə edib.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**

**Rasim MUSABƏYOV, Milli Məclisin deputatı, politoloq**



Azərbaycanın Münxen Təhlükəsizlik Konfransına dəvət olunması həm dövlət kimi əhəmiyyətinin təzahürü, həm də Prezident İlham Əliyevin beynəlxalq nüfuzunun göstəricisidir. Diqqəti bir məsələyə cəlb etmək istərdim. Güman edirəm ki, həmin konfransa dəvət olunan dövlət başçılarının arasında ən təcrübəlisi İlham Əliyevdir. Cənab Prezident, səhv etmirəmsə, on yeddinci, yaxud on səkkizinci dəfədir Münxen Konfransının iştirakçısı olur. Baxmayaraq ki, geosiyasi nöqteyi-nəzərdən, o beynəlxalq platformanın çətinlikləri də az deyil. Həmin tribunada dünyanın aparıcı güclərinin qarşısına çıxan, suverenliyini və ərazi bütövlüyünü bərpa etmiş, bölgənin ən qüdrətli ordusuna sahib, böyük enerji resurslarına malik Azərbaycan əhəmiyyətli dövlətdir.

Sadaladığımız amillər Münxen Təhlükəsizlik Kofransının təşkilatçıları tərəfindən Azərbaycan Prezidentinin tədbirə dəvət olunmasını şərtləndirdi. Elə konfransdan əvvəl edilən müraciətlər əsasında keçirilən ikitərəfli görüşlərdə ciddi fikir mübadiləsinin şahidi olduq. Bildiyimiz kimi, həmin konfransda dövlətimizin başçısını bir sıra nazirlər, müşavirlər də müşayiət edirlər. Onlar da Azərbaycana maraq göstərən tərəfdaşlarla görüşlər keçirir, danışıqlar aparırlar. Yəni, bunun sayəsində dünyanın təhlükəsizliyi ilə bağlı nəbzi hiss etmək imkanı yaranır.

Kiminsə qəbul edib-etməməsindən asılı olmayaraq, Azərbaycan dünyanın siyasi müstəvisində mövcuddur. Bizim Cənubi Qafqazın sərhədlərini aşan böyük nüfuzumuz var. Qoşulmama Hərəkatında sədrliyi Uqandaya versək də, yenə o beynəlxalq təşkilatda söz sahibiyik.

Bu baxımdan, Azərbaycan həm Türk Dövlətləri Təşkilatının möhkəmlənməsində, həm də regional, o cümlədən Orta Dəhliz, Şimal–Cənub nəqliyyat marşrutu kimi transmilli layihələrin reallaşmasında əsas icraçıdır. Bütün bu amillər Azərbaycanın Münxen Təhlükəsizlik Konfransında iştirakını zərurətə çevirdi.



# COP29 Münxen görüşlərində əsas mövzulardan biridir

**Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı keçirdiyi görüşlər, iştirak etdiyi tədbirlərdə çıxışları Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyaya səfəri də bunun bariz ifadəsidir.**

Xatırladaq ki, dövlət başçısı Münxendə keçirdiyi bir sıra mühüm görüşlərdə dünyada təhlükəsizlik sisteminin yenidən qurulmasına ehtiyacın olduğunu qabartmaqla, bunun üçün beynəlxalq hüquq normalarına, ərazi bütövlüyünə bütün ölkələrdə hörmət edilməsinin, bir standartın tətbiqinin vacib olduğunu iştirakçıların diqqətinə çatdırıb. Eyni zamanda, regionda təhlükəsizliyin təmin olunmasında, aparıcı dövlətlər arasında mövcud ziddiyyətlərin aradan qaldırılmasında Azərbaycanın rolunu bir daha göstərərək bu səylərin bütün dünyanın təhlükəsizliyinə xidmət etdiyini bildirib.

Münxen Təhlükəsizlik Konfransı bir çox cəhətdən Azərbaycan üçün əlamətdar olub. İlk növbədə, beynəlxalq platformadan istifadə edilərək Azərbaycan həqiqətləri bir daha iştirakçıların diqqətinə çatdırılıb. Digər tərəfdən, Azərbaycan Prezidenti iqtisadi görüşlər keçirməklə ölkəmizin iqtisadi inkişafını dünya aparıcı biznes strukturları ilə inteqrasiya formasında gördüyünü nümayiş etdirib. Həmçinin diqqəti Azərbaycanın həm regional, həm də dünya miqyasında aparıcı roluna yönəldib.

Prezident İlham Əliyev ilə ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerrinin fevralın 17-də Münxen görüşü də mühüm önəmi ilə diqqət çəkib. Həmin görüşdə dövlətimizin başçısı Azərbaycanın COP-la əlaqədar bir daha özünün iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləmək əzmini nümayiş etdirdiyini diqqətə çatdırıb. Ölkə rəhbəri Azərbaycanın, eyni zamanda, milli səviyyədə bərpaolunan enerji və "yaşıl keçid" prosesi sahəsində ciddi tədbirlər həyata keçirdiyini, bu istiqamətdə region səviyyəsində və qlobal miqyasda olan tədbirləri yaxından dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev C.Kerri ilə söhbətində iqlim maliyyələşdirilməsinin COP29-un əsas mövzusuna çevriləcəyini, Azərbaycanın da bu xüsusda qlobal həmrəyliyə, xüsusilə də qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini davam etdirəcəyini bildirib. Bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına 4 il sədrlik edən dövlət kimi çox yaxşı təcrübə qazandığını, eyni zamanda, respublikamızın digər müxtəlif platformalarda fəal şəkildə iştirak etdiyini, bununla da qlobal həmrəyliyə nail olunmasına dəstək verdiyini xatırladıb.

Con Kerri isə söhbət zamanı iqlim maliyyələşdirilməsi mövzusunun gündəlikdə duran əsas məsələlərdən biri olduğunu, hazırda "yaşıl keçid"lə əlaqədar texnoloji inkişafın çox sürətlə getdiyini və bu istiqamətdə yaxşı nəticələrin əldə edildiyini, Bakıda da qəbul ediləcək qərarların iqlim dəyişikliyi prosesində beynəlxalq səylərə ciddi təkan verəcəyinə ümidvarlığını bildirib.

Prezident İlham Əliyev ilə ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsinin bu görüşü deməyə əsas verir ki, növbəti iqlim konfransının– COP29-un cari ilin noyabrında Bakıda keçirilməsi dünyada heç bir təəccüb doğurmur. Çünki Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) təmin olunması və iqlim dəyişiklikləri ilə mübarizə üzrə üzərinə götürdüyü bütün öhdəliklərə sadiqlik nümayiş etdirir və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfdaşı olaraq qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə əhəmiyyətli töhfə verir.

Onu da qeyd edək ki, Azərbaycanın 2030-cu ilədək 5 mili sosial-iqtisadi inkişaf prioritetlərindən biri "təmiz ətraf mühitə və yaşıl artıma malik ölkə" olaraq müəyyənləşdirilib. Bu prioritetə uyğun olaraq artıq neçə ildir ki, ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, yaşıllaşdırmanın bərpası və artırılması, su resurslarından səmərəli istifadənin və dayanıqlı enerji mənbələrinin təmin olunması üzrə işlərə başlanılıb. Azərbaycan istixana qazlarının emissiyasını baza (1990-cı il) göstəricisi ilə müqayisədə 2030-cu ilədək 35 faiz, 2050-ci ilədək isə 40 faiz azaltmağı qarşısına məqsəd qoyub.

Prezidenti İlham Əliyev ilə İtaliyanın "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Mariani, ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqu, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Basso, ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn və Almaniyanın Şərqi Biznes Assosiasiyasının icraçı direktoru Mixael Harms arasında keçirilən görüşlərdə də ölkəmizdə COP29-un reallaşdırılmasının daha geniş miqyasda iqtisadi layihələrin gerçəkləşdirilməsi potensialının gücləndirilməsi işinə xidmət etdiyi bildirilib.

***XQ***

# Qərbi Azərbaycan İcması Qayıdış missiyasını davam etdirir

**Fevralın 17-də Qərbi Azərbaycan İcmasında təşkilatın mərkəzi orqanlarının rəhbərlərinin iclası keçirilib.**

İcmadan bildiriblər ki, tədbiri giriş sözü ilə açan Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Prezident İlham Əliyevin 7 fevral seçkilərində Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlməsini və andiçmə mərasimində söylədiyi fikirləri xüsusi vurğulayıb, onları ölkəmizin gələcək inkişafı istiqamətində vacib addımlar olacağını qeyd edib.

Əziz Ələkbərli İcmanın 2024-cü ildə də soydaşlarımızın öz doğma torpaqlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıdışı istiqamətində apardığı yorulmaz fəaliyyəti davam etdirəcəyini, bu məqsədlə ölkə daxilində və xaricində bir sıra tədbirlərin planlaşdırıldığını diqqətə çatdırıb.

O, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin və Aparatının 2024-cü ilin cari dövrü ərzində gördüyü işlər barədə məlumat verib və bu ilin növbəti aylarında görüləcək işlərin plan layihəsi ilə bağlı fikirlərini açıqlayıb.

Daha sonra Qərbi Azərbaycan İcması Müşahidə Şurasının sədri, professor Misir Mərdanov, Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, professor Əhliman Əmiraslanov, Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov, Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Ramil Həsən, Ziyalılar Şurasının sədri, professor Elxan Hüseynov, Ziyalılar Şurası sədrinin müavini, Milli Məclisin deputatı Nizami Cəfərov, Gənclər Şurasının sədri, Milli Məclisin deputatı Ramin Məmmədov, Qəyyumlar Şurasının sədri Mürvət Həsənov, Nəzarət – Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Şahin İsmayılov, Qadınlar Şurası sədrinin müavini, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı, Qadınlar Şurası sədrinin müavini, filologiya üzrə elmlər doktoru Almaz Binnətova və digər şəxslər çıxış edərək Tədbirlər Planında əks olunanlarla bağlı təkliflərini səsləndirib, cari məsələlər ətrafında müzakirələr aparıblar.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 82**

**Bakı şəhəri, 10 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sistemində daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"da dəyişiklik edilməsi haqqında***

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2359 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 738 (Cild I) ilə təsdiq edilmiş "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"ın 4.2.4-cü yarımbəndinə "başlayanlar" sözündən sonra "və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 83**

**Bakı şəhəri, 12 fevral 2024-cü il**

***"Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar"ın təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 88**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

***"Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 330 (Cild I) aşağıdakı məzmunda 6-2-ci hissə əlavə edilsin:

"6-2. Bu Qərar adambaşına maliyyələşmə mexanizminin tətbiq edildiyi peşə təhsili müəssisələrinə şamil edilmir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 89**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

***"Milli məkan məlumatlarının aero, peyk və ya digər vasitələrlə təsdiq edilməsi ilə bağlı monitorinq keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında***

"Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 448 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Milli məkan məlumatlarının aero, peyk və ya digər vasitələrlə təsdiq edilməsi ilə bağlı monitorinq keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. "Milli məkan məlumatlarının aero, peyk və ya digər vasitələrlə təsdiq edilməsi ilə bağlı monitorinq keçirilməsi Qaydası"na uyğun olaraq milli məkan məlumatlarının monitorinqini aparsın;

2.2. milli məkan məlumatlarının monitorinqinin aparılması prosesində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin kosmik peyk vasitəsilə təqdim etdiyi "Yerin məsafədən müşahidəsi xidmətləri"ndən istifadə etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 90**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən işçilərinin xüsusi geyim formasının, fərqlənmə nişanlarının təsviri və təchizat normasının və kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri olan nəzarət-ölçü cihazlarının və digər xüsusi vasitələrin siyahısının təsdiq edilməsi haqqında***

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 oktyabr tarixli 1460 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən işçilərinin xüsusi geyim formasının, fərqlənmə nişanlarının təsviri və təchizat norması" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri olan nəzarət-ölçü cihazlarının və digər xüsusi vasitələrin siyahısı" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. iki ay müddətində xüsusi geyim formasının daşınması qaydalarını təsdiq etsin;

3.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış formaya uyğun olaraq bu Qərarla təsdiq edilmiş normalar üzrə təminatın cari il dekabrın 31-i vəziyyətinə dair hesabatı növbəti il fevralın 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**4.** Müəyyən edilsin ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən işçilərinin xüsusi geyim forması, fərqlənmə nişanları, nəzarət-ölçü cihazları və digər xüsusi vasitələr ilə təminatı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin büdcədənkənar vəsaiti hesabına həyata keçirilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Ermənistanın təxribatları sülh prosesinə təhdiddir

**Fevralın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində qarşı tərəfin müraciəti əsasında ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli gündəlikdə duran məsələlər, habelə Azərbaycan və Ermənistan arasında ikitərəfli əsasda normallaşma prosesinin perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov 5 ay sabitlik hökm sürəndən sonra heç bir təhrikedici amil olmadan snayper atəşi nəticəsində Azərbaycan hərbi qulluqçusunun yaralanması ilə nəticələnən Ermənistan təxribatının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb.

Bununla yanaşı, Avropa İttifaqının Ermənistandakı missiyasının regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə sui-istifadə olunmasının, onların apardığı "binokl diplomatiyasının" qəbuledilməzliyi diqqətə çatdırılıb.

Sülh sazişi layihəsinə gəldikdə Ermənistanın Konstitusiyasında, qanunvericilik aktlarında, beynəlxalq təşkilat və məhkəmələrdə ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar bir daha xatırlanıb və bu iddialardan əl çəkməyin vacibliyi vurğulanıb.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 84**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 noyabr tarixli 517 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 28 noyabr tarixli 517 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2179 (Cild I) ilə təsdiq edilmiş "Gömrük orqanlarının vəzifəli şəxslərinin attestasiyasının keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.3-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Attestasiyanın keçirilməsinin formasından asılı olmayaraq vəzifəli şəxslərə yalnız tutduğu vəzifəyə, vəzifə təlimatına, icra etdiyi işlər və onların nəticələri barədə, habelə tutduğu vəzifəyə uyğunluğunu müəyyən etmək üçün qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarına, qulluq funksiyalarına aid olan məsələlərlə əlaqədar suallar verilməli və ya təqdim edilməlidir.".

**2.** Aşağıdakı məzmunda 2.3-1–2.3-3-cü bəndlər əlavə edilsin:

"2.3-1. Attestasiya müsahibə, yazılı və ya test imtahanı formasında keçirilə bilər. Test üsulundan istifadə edilməklə keçirilən attestasiya xüsusi proqram təminatı vasitəsilə təşkil edilir.

2.3-2. Attestasiya test formasında keçirildikdə vəzifəli şəxsə bu Qaydanın 2.3-cü bəndinin tələblərinə uyğun olaraq 100 sual (25 sual çətin, 30 sual orta, 45 sual sadə olmaqla), yazılı formada keçirildikdə 20 sual (5 sual çətin, 6 sual orta, 9 sual sadə olmaqla) təqdim edilir. Test və yazılı formada təqdim edilmiş sualların cavablandırılması üçün 3 (üç) saat vaxt müəyyən edilir.

2.3-3. Müsahibə formasında attestasiya hər bir vəzifəli şəxslə fərdi qaydada, vəzifəli şəxsin bilik səviyyəsinin, işgüzarlıq və mənəvi keyfiyyətlərinin qiymətləndirilməsinə yönəldilmiş sualların, tapşırıqların verilməsi, vəzifəli şəxs tərəfindən həmin sualların cavablandırılması və tapşırıqların həll edilməsi yolu ilə keçirilir.".

**3.** 2.6-cı bəndin birinci cümləsində "attestasiyadan" sözü "müsahibə formasında attestasiyadan" sözləri ilə əvəz edilsin.

**4.** 2.7-ci bənddə "attestasiya" sözü "yazılı və test formasında keçirilən imtahanda iştirak etmədikdə, müsahibə formasında attestasiya" sözləri ilə əvəz edilsin.

**5.** 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.8. Vəzifəli şəxs attestasiyanın keçirilməsində üzrlü səbəbdən iştirak etmədikdə onun attestasiya komissiyasının növbəti iclasında bu Qaydaya uyğun olaraq attestasiyadan keçməsi təmin edilir.".

**6.** Aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

"2.9-1. Attestasiya bu Qaydanın 2.3-2-ci bəndində nəzərdə tutulmuş qaydada həyata keçirildikdə attestasiya komissiyası sualların azı 70 faizini doğru cavablandıran vəzifəli şəxslərə həmin Qaydanın 2.9.1-ci yarımbəndində, sualların azı 50 faizini doğru cavablandıran vəzifəli şəxslərə Qaydanın 2.9.2-ci yarımbəndində, sualları 50 faizindən aşağı doğru cavablandıran vəzifəli şəxslərə isə Qaydanın 2.9.3-cü yarımbəndində göstərilən qiymətləri verir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 85**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nın 2.3-cü bəndinin birinci abzasında "şəxslər," sözündən sonra "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələri," sözləri və "Nazirliyi" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 86**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

***"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 dekabr tarixli 542 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2490 (Cild I) ilə təsdiq edilmiş "Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası"nın 5.6-cı bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 noyabr tarixli 448 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1868 (Cild I) ilə təsdiq edilmiş "Milli məkan məlumatlarının Siyahısı və Təsnifatı"nın 20-ci hissəsinin "Məlumatların siyahısı" sütununda "istehsal və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 204 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi Qaydaları"nın 1.1-ci bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə, 2.1.1-ci yarımbəndində "istehsalat və məişət tullantıları" sözləri "tullantılar" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyun tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 860 (Cild I) ilə təsdiq edilmiş "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi Qaydası"nın 3.11-ci bəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 87**

**Bakı şəhəri, 13 fevral 2024-cü il**

***"Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 56 (Cild I) 1-ci hissəsinin səkkizinci abzası aşağıdakı redaksiyada verilsin:

"- tədris prosesində və ya təhsil müəssisələrinin tədris-istehsalat və xidmət sahələrində istehsal edilmiş məhsulların satışı, iş və xidmətlərin göstərilməsi;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Gələn il Xəzərin dərin laylarından da qaz hasil ediləcək



*(əvvəli 1-ci səhifədə)*

2023-cü ildə Azərbaycandan 23 milyard 856 milyon kubmetrdən artıq qaz ixrac olunub ki, bu da əvvəlki illə müqayisədə 6,9 faiz çoxdur. Ümumi ixracın 11,8 milyard kubmetri Avropanın payına düşüb. Bütövlükdə isə, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəmərinin istismara verildiyi 2020-ci il dekabrın 31-dən ötən müddətdə ölkəmiz "köhnə qitə"dəki tərəfdaşlarına, təqribən, 31,5 milyard kubmetr təbii qaz göndərib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Avropa məkanına ixrac edilən qazın həcmi çox olmasa da, bu, ölkəmizin ümumi ixracının yarısını təşkil edir. Ötən il ölkəmizdən Türkiyəyə 9,5 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr "mavi yanacaq" ixrac olunub.

Hazırda Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan və Serbiya Azərbaycan qazının əsas alıcılarıdır. Azərbaycan qazının mövcud ixrac coğrafiyası, həqiqətən də, ölkəmizin Panavropa təchizatçısı olduğunu təsdiq edir.Yaxın illərdə isə Cənub Qaz Dəhlizinin təkanverici qüvvəsi sayılan interkonnektorların kömәyi ilə ölkəmizin qaz ixracı coğrafiyasının bir qədər də genişlənəcəyini proqnozlaşdırmaq olar. Bunun üçün isə Azərbaycan kifayət qədər təbii qaz resurslarına malikdir. Ölkəmizin qaz ehtiyatları ilə zənginliyi artıq beynəlxalq miqyasda da öz təsdiqini tapıb. Belə ki, son illər həyata keçirilmiş geoloji-kəşfiyyat işləri nəticəsində Azərbaycanın qaz ehtiyatları 2,6 trilyon kubmetr həcmində qiymətləndirilib. Amma əksər mütəxəssislər bu ehtiyatların daha çox olmasını qənaətindədirlər. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycanın qaz ehtiyatlarının zənginliyi ilə seçilən yataqlarından bəhs edib. Dövlət başçısı Avropanın enerji təhlükəsizliyinin təminatında önəmli rol oynayan "Şahdəniz" qaz-kondensat yatağı ilə yanaşı, Xəzərin Azərbaycan sektorunda yerləşən "Abşeron", "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan", "Qarabağ" kimi digər yataqların da yüksək potensiala malik olduğunu söyləyib.

Prezident İlham Əliyev "Azəri–Çıraq–Günəşli" (AÇG) yatağı üzrə həyata keçiriləcək "Dərin qaz" adlandırılan layihənin də ölkəmizin qaz bazarına böyük töhfə verəcəyinə əminliyini ifadə edib. Sözügedən layihə çərçivəsində yaxın gələcəkdə ilk qazın əldə olunacağını diqqətə çatdıran ölkə rəhbəri orada da potensialın çox yüksək olduğunu bildirib. Məlum olduğu kimi, AÇG-nin dərin laylarında olan qaz ehtiyatları 300 milyard kubmetr həcmində proqnozlaşdırılır.

Hazırda BP şirkəti və konsorsiumun digər iştirakçıları tərəfindən AÇG-nin dərin laylarından qaz hasilatına ("deep-gas") başlanılması üçün işlər qrafik üzrə davam etdirilir. "BP-Azərbaycan" şirkətinin 2023-cü ilin nəticələrinə dair hesabatına əsasən, ötən il "Azəri–Çıraq–Günəşli" strukturunda hazırda istismarda olan neft yatağının altındakı dərin qaz layları haqqında məlumat toplamaq məqsədilə yeni bir qiymətləndirmə quyusu qazılıb. Fevralın 7-də A22z adlı kəşfiyyat quyusunda başlanan qazma əməliyyatları aprel ayında tamamlanıb. Hazırda AÇG-nin dərin qaz laylarının potensialını öyrənmək məqsədilə həmin quyudan əldə olunmuş məlumatların təhlili aparılır.

Bugünlərdə isə şirkət "Azəri–Çıraq–Günəşli" yataqlar blokunda dərin laylardan qaz hasilatına başlamaq üçün ilk quyunun qazılacağı vaxtı açıqlayıb. Məlumata əsasən, "Dərin qaz" layihəsi çərçivəsində ilk quyu bu il qazılacaq. Qazma işlərinin nəzərdə tutulduğu vaxtda başa çatdırılması isə gələn ilin əvvəllərində buradan ilk qazın əldə edilməsinə imkan yaradacaq. Bu barədə BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda quyular üzrə vitse-prezidenti Cim O'Liri jurnalistlərə açıqlamasında bildirib. "AÇG-də dərin laylardan qaz hasilatı üçün ilk hasilat quyusunun qazılmasına 2024-cü ilin ikinci yarısında başlamağı planlaşdırırıq. Birinci hasilat quyusu uğurlu olduğu təqdirdə ilk qaz hasilatına 2025-ci ilin əvvəlində başlamağı nəzərdə tuturuq", – deyə o əlavə edib.

Xatırladaq ki, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş 1994-cü il sentyabrın 20-də imzalanıb. Həmin il dekabr ayının 12-də isə sənəd qüvvəyə minib. Müqavilənin müddəti 2024-cü ildə başa çatmalı olsa da, 2017-ci il sentyabrın 14-də Bakıda AÇG blokunun işlənməsi haqqında 2050-ci ilədək olan dövrü əhatə edən yeni müqavilə imzalanıb.

"Yeni əsrin müqaviləsi" adlandırılan layihədə BP (Böyük Britaniya, layihənin operatoru–30,37 faiz), SOCAR (Azərbaycan–25 faiz), MOL (Macarıstan–9,57 faiz), "ExxonMobil" (Amerika Birləşmiş Ştatları–6,79 faiz), ONGC (Hindistan–2,31 faiz), "Inpex Corp." (Yaponiya–9,31 faiz), "ITOCHU Oil" (Yaponiya–3,65 faiz), "Equinor" (Norveç– 7,27 faiz) və TPAO (Türkiyə– 5,73 faiz) şirkətləri pay sahibidirlər.

2023-cü ilin dekabr ayında SOCAR tərəfindən "Azəri–Çıraq–Günəşli" layihəsi üzrə "Equinor" şirkətinə məxsus iştirak payının alınmasına dair saziş imzalanıb. İştirak payının alınmasına dair əqd bütün tənzimləyici tələblərin və müqavilə öhdəliklərinin şərtlərinə əməl edilməklə başa çatdırılacaq.

Yeri gəlmişkən, 2023-cü ildə Azərbaycanda 48 milyard 496,7 milyon kubmetr qaz hasil edilib ki, bunun da 36 milyard 413,8 milyon kubmetri əmtəəlik qaz olub. Ümumilikdə isə, ölkə üzrə qaz hasilatı əvvəlki illə müqayisədə 3,8 faiz artıb. Bu zaman hasilatın, təqribən, 13 milyard 440 milyon kubmetri daxili istehlaka yönəldilib. Bu isə 2022-ci ilə nisbətən 0,7 faiz azdır. Ötən il SOCAR-ın tərkibinə daxil olan Azərbaycan Qaz Emalı Zavodunda 3 milyard 506 milyon 843 min kubmetr qaz emal edilib.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

---

**İqtisadiyyat Nazirliyinin məlumatına görə, ötən il 2022-ci illə müqayisədə ixrac məqsədilə daxildə emal gömrük proseduru üçün idxal mallarının dəyərində 85 faiz, prosedurdan yararlanan şirkətlərin sayında isə 77 faiz artım müşahidə edilib.**

Məlumatda bildirilib ki, Azərbaycanda həyata keçirilən daxildə emal xüsusi gömrük proseduru müəyyən malların emal əməliyyatları aparıldıqdan sonra ixracı məqsədilə ölkə ərazisinə gömrük rüsumları və vergilər, o cümlədən ƏDV alınmadan gətirilməsindən ibarətdir. Emal əməliyyatları dedikdə, malların hazırlanması, emalı, təkrar emalı və təmiri başa düşülür. Respublikamızda malların daxildə emal xüsusi gömrük proseduru altında xüsusi gömrük proseduru ixracyönümlü istehsalın artırılması üçün geniş istifadə olunur. Belə ki, xarici xammaldan asılı olan ixrac məqsədli məhsulların istehsalı üçün xammal və materiallar bu prosedur əsasında yerləşdirilir, gömrük rüsumu və vergilər ödənilmədən ölkəyə gətirilir və istehsal olunan yeni məhsul qanunvericilikdə nəzərdə tutulan müddət ərzində emal edilərək ixrac olunur.

Beləliklə, istehsal olunan məhsulun

# İdxal-ixraca "yaşıl işıq"




yerləşdirilməsi əsasən, iki istiqamətdə – təmir və emal məqsədilə gerçəkləşdirilir. Prosedur emal və xidmət sektorunun inkişafına, ixrac fəaliyyətinin stimullaşdırılması məqsədilə tətbiq olunur.

Malların daxildə emal xüsusi gömrük proseduru ilə yerləşdirilməsi qaydalarına indiyədək bir sıra dəyişikliklər olunub. Həmin dəyişikliklər nəticəsində prosedur sahibi sifariş müqaviləsi ilə yanaşı, alqı-satqı razılaşması əsasında da istənilən ölkədən xammal və ya materialı respublikaya gətirib qanunvericilikdə nəzərdə tutulan müddətdə emal edərək istənilən ölkədəki alıcıya göndərmək imkanı əldə edib. Bununla yanaşı, gömrük borcunun ödənilməsinə məcburi təminatın verilməsi aradan qaldırılıb, həmçinin prosedurdan istifadə icazəsinin alınması üçün sənədləşmə prosesi sadələşdirilib.

İqtisadiyyat Nazirliyinin məlumatında sahibkarlıq subyektlərinin prosedur üzrə müraciətlərinin təhlilinə əsaslanaraq, 2022-ci ilin may ayında təminat tələbinin məcburiliyinin aradan qaldırılmasından sonra prosedurdan daha fəal istifadə edilməyə başlanılıb. Eyni zamanda, 2023-cü ilin aprel ayında alqı-satqı müqaviləsi əsasında da prosedurdan istifadə imkanının yaradılmasından sonra yeni müəssisələr prosesə qoşulub.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiqlənən "2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq, ixracyönümlü yerli istehsalı artıra biləcək güzəştli gömrük prosedurlarının sadələşdirilməsi nəzərdə tutulur. Bu kontekstdə daxildə emal xüsusi gömrük prosedurunun istifadə şərtlərinin sadələşdirilməsi diqqət mərkəzində saxlanılır.

Ölkə daxilində emal xüsusi gömrük prosedurundan istifadənin sadələşdirilməsi, səmərəliliyinin və ixracyönümlü yerli istehsalın artırılması məqsədilə yuxarıda vurğulandığı kimi, Nazirlər Kabineti tərəfindən 2023-cü il aprelin 10-da müvafiq qərar qəbul edilməsi müəyyən mallarla bağlı emal əməliyyatları aparıldıqdan sonra onların ixracı məqsədilə Azərbaycanın gömrük ərazisinə gömrük rüsumları və vergilər, o cümlədən ƏDV alınmadan gətirilməsindən ibarət xüsusi gömrük prosedurunun gerçəkləşdirilməsi nəzərdə tutulub. Yeri gəlmişkən, yuxarıda vurğulanan "emal əməliyyatları" dedikdə isə malların hazırlanması, emalı, təkrar emalı və təmiri nəzərdə tutulub.

Daxildə emal proseduru əsasında yerləşdirilən xarici xammallar gömrük ərazisində bir və ya bir neçə emal əməliyyatında (idxal gömrük rüsumları, malların idxalı üzrə qanunvericilikdə nəzərdə tutulmuş əlavə dəyər vergisi və aksizlər) istifadə edilir. Ümumiyyətlə, xarici ölkələrin təcrübəsində daxildə emal ixrac bazarlarında rəqabətqabiliyyətliliyi artır. Daxildə emal xüsusi prosedurunun üstünlüyü odur ki, məhsulun maya dəyəri aşağı düşür, inzibatçılıq azalır, sahibkarların vaxtına və vəsaitinə qənaət edilir, ölkəmizə investisiya yatırılması imkanları artır, istehsal olunan məhsulların rəqabət qabiliyyəti yüksəlir, ixrac bazarlarına yönəlmiş istehsalın artırılmasına şərait yaranır.

Ekspertlər bildirirlər ki, Nazirlər Kabinetinin 10 aprel 2023-cü il tarixli qərarının tətbiqinin şərtləndirdiyi yeni dəyişikliklər şirkətləri daxildə emal xüsusi prosedurundan daha çox, istifadəyə bir növ təşviq edir. Qərardan irəli gələn əsas yenilik daxildə emal xüsusi gömrük prosedurundan istifadə imkanının genişləndirilməsi, yəni malların prosedur sahibinin mülkiyyətinə keçməsini nəzərdə tutan alqı-satqı müqaviləsi əsasında daxildə emal xüsusi gömrük proseduru ilə yerləşdirilməsi imkanının yaradılmasıdır.

Beləliklə, qaydalara edilən yeni dəyişikliklərə əsasən, daxildə emal xüsusi gömrük prosedurundan istifadə icazəsinin alınması üçün sənədləşmə prosesi sadələşdirilib, prosedur sahibi xammal və ya materialı qanunvericilikdə nəzərdə tutulan müddət çərçivəsində ölkəyə gətirib emal prosesindən keçirdikdən sonra istənilən ölkədəki istənilən alıcıya yönləndirmək imkanı əldə edib.

Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

**Vaqif BAYRAMOV**
**XQ**

---

# Ötən ay ölkəmizə 4,4 min ton ət gətirilib

**2024-cü ilin yanvar ayında Azərbaycana 8 milyon 542 min dollar dəyərində 4 min 411 ton ət idxal edilib. Bu barədə Dövlət Gömrük Komitəsindən məlumat verilib. Bildirilib ki, məhsul idxalı dəyər ifadəsi ilə 3 milyon 659 min dollar yəni 74,9 faiz, miqdar ifadəsi ilə, təxminən, 1719 ton və ya 63,8 faiz artıb. Xatırladaq ki, ötən ilin müvafiq dövründə ölkəyə 4 milyon 882 min dollar məbləğində 2 min 692 ton ət gətirilib.**



Hesabat dövründə 1 ton ətin idxal qiyməti 1937 dollar, ötən ilin eyni dövründə isə 1814 dollar təşkil edib. Bu isə o deməkdir ki, bu il ilk ayında bir kiloqram ətin idxalı 3,29 manat, ötən ilin müvafiq dövründə isə 3,08 manata başa gəlib.

Qeyd edək ki, hesabat dövründə idxal edilən ətin dəyəri Azərbaycanın ümumi idxalının 0,75 faizini təşkil etdiyi halda, ötən ilin müvafiq dövründə bu rəqəm 0,35 faizə bərabər olub.

**XQ**

---




# İqtisadi artım 2,8 faizə yüksələcək

**"Fitch Ratings" beynəlxalq reytinq agentliyi 2023-cü ildəki 1,1 faizlik iqtisadi artımdan sonra bu il respublikada həmin göstəricinin 2,8 faizə yüksələcəyini proqnozlaşdırıb.**

Reytinq agentliyinin məlumatında daha sonra bildirilir ki, 2023-cü ildə artım nəzərəçarpacaq dərəcədə azalaraq təxminən 1,1 faizə çatdı ki, bu da neft-qaz sektorunda azalmanı və bəzi əsas qeyri-neft sahələrində, xüsusən də nəqliyyatda pandemiyadan sonrakı artımın yumşalmasını əks etdirir. "Fitch Ratings" artımın investisiya qoyuluşu hesabına 2024-cü ildə 2,8 faizə və 2025-ci ildə isə 2,5 faizə qədər bərpa ediləcəyini gözləyir.

Agentlik bununla belə hesab edir ki, dövlətin böyük həcmdə iştirakçılığı, idarəetmə ilə bağlı çətinliklər, maliyyə resurslarına məhdud çıxış, qeyri-neft sektoruna investisiyaların aşağı olması iqtisadiyyatın şaxələndirilməsi istiqamətində irəliləyişə mane olur.

**XQ**

---

# ÜDM 1 ayda 5 faiz çoxalıb

**Bu ilin yanvar ayında Azərbaycanda 9 milyard 131 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 5 faiz çoxdur. Ötən ay əhalinin hər nəfərinə düşən ÜDM-in dəyəri isə 897 manat olub.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, son bir ildə iqtisadiyyatın neftqaz sektorunda əlavə dəyər 2,6 faiz azalsa da, qeyri neftqaz sektorunda 12,3 faiz artım qeydə alınıb.

İlin ilk ayında ÜDM istehsalının 41,9 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,8 faizi informasiya və rabitə, 1,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 17,8 faizi digər sahələrin payına düşüb. Hesabat dövründə məhsula və idxala xalis vergilər ÜDM-in 10,6 faizini təşkil edib.




**XQ**

---

# Qadınlara və gənclərə güzəştli kredit verilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun "X" sosial şəbəkəsindəki paylaşımında ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən 290 qadın və 108 gənc sahibkara, ümumilikdə, 23,5 milyon manat güzəştli kredit verildiyi bildirilib.**

Nazir qeyd edib ki, bu kreditlər sahibkarlıq sahəsində çalışan qadınların və gənclərin fəaliyyətinin stimullaşdırılması məqsədilə verilib.

**XQ**



Fazil Qurbanov – 80

# Dünya şöhrətli cərrah

**Bu gün adı Azərbaycan səhiyyəsində yaxşı tanınan, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, tibb elmləri doktoru, professor Fazil Qurbanovun 80 yaşı tamam olur.**



Fazil Səməd oğlu Qurbanov 1944-cü il fevralın 18-də Bakıda anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdir. 1974-cü ildə Respublika Klinik Uroloji Xəstəxanasında cərrahiyyə ixtisası üzrə internatura keçmişdir. 1975-ci ildən Azərbaycan SSR EA Fiziologiya İnstitutunda SSRİ Tibb Elmləri Akademiyasının (TEA) həqiqi üzvü Mustafa Topçubaşovun rəhbərlik etdiyi cərrahiyyə qrupunda elmi işçi kimi fəaliyyətə başlamışdır.

1980-ci ildə SSRİ Ümumittifaq Elmi Cərrahiyyə Mərkəzinin nəzdində cərrahiyyə ixtisası üzrə məqsədli aspiranturaya daxil olmuşdur. 1983-cü ildə akademik B.V.Petrovskinin rəhbərliyi ilə "Cərrahi müalicədən sonra təkrarlanan kardiospazm zamanı pnevmatik kardiodilatasiya" mövzusunda dissertasiyanı uğurla müdafiə edərək, tibb elmləri namizədi elmi dərəcəsini almışdır.

F.Qurbanov 1984-cü ildə Ümumrusiya Elmi-Tədqiqat Mərkəzinə cərrahiyyə üzrə doktoranturaya göndərilmişdir. 1987-ci ildə SSRİ TEA-nın cərrahiyyə fakültəsində "Qida borusunun bəd və xoşxassəli strikturaları zamanı birmomentli ezofaqoplastika" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1989-cu ildə Fazil Qurbanov Azərbaycanda yeni yaradılmış Elmi-Tədqiqat Qastroenterologiya İnstitutuna şöbə müdiri vəzifəsinə dəvət edilmiş və eyni zamanda, Azərbaycan Tibb Universitetinin II cərrahi xəstəliklər kafedrasında professor vəzifəsində fəaliyyət göstərmişdir. O, Ümumrusiya Elmi-Tədqiqat Mərkəzində çalışdığı illərdə mükəmməl mənimsədiyi həzm sistemi xəstəliklərinin cərrahi və konservativ müalicəsinin bir sıra yeni üsullarını burada uğurla tətbiq etmiş, səmərəli elmi-pedaqoji fəaliyyət göstərmişdir.

Professor F.Qurbanov 1999-cu ildə Moskvaya, Rusiya Dəmir Yolları ASC-nin 2 saylı Mərkəzi Klinik Xəstəxanasının cərrahiyyə şöbəsinin müdiri vəzifəsinə dəvət olunmuşdur. Eyni zamanda, Rusiya Xalqlar Dostluğu Universitetinin hospital cərrahiyyə kafedrasının professoru seçilmiş və ömrünün sonunadək orada çalışmışdır. 2006–2013-cü illərdə Moskvanın 17 saylı şəhər klinik xəstəxanasında hospital cərrahiyyə şöbəsinin klinik bazasında işləmişdir.

Fazil Qurbanov 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilmişdir. Akademik F.Qurbanovun elmi və həkimlik fəaliyyəti mədə xorasının cərrahiyyəsi və əməliyyat olunmuş mədənin xəstəlikləri, kardiospazm və əməliyyat olunmuş qida borusunun xəstəlikləri, xoşxassəli capıq daralmalar və qida borusu xərçəngi, qarın boşluğunun və retroperitoneal sahənin minimal invaziv cərrahiyyəsi və rekonstruktiv cərrahiyyə məsələlərinə həsr olunmuşdur. Alim qida borusunun xoş və bədxassəli xəstəlikləri üçün rekonstruktiv əməliyyatların inkişafına böyük töhfə vermiş, bir çox cərrahiyyə klinikalarında istifadə olunan müdaxilələrin aparılması üçün bir sıra orijinal cərrahi alətləri klinik praktikaya tətbiq etmişdir.

Aparılan əməliyyatların mühüm nəticələrindən biri əməliyyatdan sonrakı ölüm hallarının əhəmiyyətli dərəcədə azalması olmuşdur. Fazil Qurbanov ilk dəfə olaraq, qida borusunun kompüter tomoqrafiyasından mediastinuma və qonşu orqanlara şiş invaziyasının dərəcəsini qiymətləndirmək üçün istifadə etmişdir. O, kardial axalaziya və kardiospazmın cərrahi müalicəsinin yeni üsullarını işləyib hazırlayaraq kliniki praktikaya tətbiq etmişdir. Görkəmli təbib cərrahi xəstəliklərin müalicəsində minimal invaziv müdaxilələrdən istifadənin yeni üsullarını uğurla inkişaf etdirmiş, xəstələrin xəstəxana şəraitində müalicə müddətini 1 günə endirmişdir.

Fazil Qurbanov cərrahiyyə üzrə 280-dən çox elmi əsərin, o cümlədən 6 monoqrafiya və 2 dərsliyin, 13 ixtiranın və 7 səmərələşdirici təklifin müəllifi olmuşdur. Onun elmi rəhbərliyi ilə 9 doktorluq və 17 namizədlik dissertasiyası müdafiə edilmişdir.

Fazil Qurbanov Rusya Xalqlar Dostluğu Universitetinin Dissertasiya Şurasının üzvü, N.I.Piroqov adına Cərrahlar Assosiasiyasının, Rusiya Endoskopik Cərrahlar Assosiasiyasının, Torakal Cərrahlar Assosiasiyasının, Beynəlxalq Cərrahlar Kollecinin üzvü, Moskvada və Azərbaycanda işıq üzü görən "Cərrahiyyə" jurnalları redaksiya heyətlərinin üzvü olmuşdur.

Alim çox böyük əmək qabiliyyəti, qətiyyəti, elmi maraqlarının çoxşaxəliliyi, geniş erudisiya qabiliyyəti ilə seçilirdi. Onun peşəkarlığı, insanlara qarşı mehribanlığı və diqqəti dərin hörmət və minnətdarlıq hissi doğururdu. Fazil Qurbanovun tələbələrinin əksəriyyəti xaricdə və MDB ölkələrində cərrahiyyə sahəsində aparıcı mütəxəssislərdir.

O, ictimai işlərə də böyük diqqət ayırırdı. Rusiyanın 70-dən çox regional diaspor təşkilatında birləşmiş çoxmilyonlu Azərbaycan diasporunun rəhbərliyində səmərəli fəaliyyəti ölkələrimiz arasında əlaqələrinin genişləndirilməsi üçün çoxsahəli səmərəli sistem yaratmağa imkan vermişdir.

Yüksəkixtisaslı elmi kadrların hazırlanması və uğurlu diaspor fəaliyyətinə görə 2019-cu ildə o "Şöhrət" ordeni, "Dədə Qorqud" Milli Fondu tərəfindən "Qızıl ürək" medalı ilə təltif olunmuşdur. 2016-cı ildə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına, 2017-ci ildə Moskva şəhərində elmə verdiyi töhfələrə görə Rusiya Təbiət Elmləri Akademiyasının A.X.Mirzəcanzadə adına beynəlxalq gümüş medalına layiq görülmüşdür.

Çox dəyərli həmkarım, dostum, həyatımda böyük rol oynamış, mənə praktiki cərrahiyyənin və elmi araşdırmaların əsasını öyrədən elmi rəhbərim akademik Fazil Qurbanovla Elmi-Tədqiqat Qastroenterologiya İnstitutunda10 il birlikdə çalışmağımı taleyimin xoş qisməti hesab edirəm.

Akademik Fazil Səməd oğlu Qurbanov 23 dekabr 2020-ci il tarixində Moskva şəhərində əbədiyyətə qovuşmuşdur. Məzarı Bakıda II Fəxri xiyabandadır. Məkanı cənnət olsun!

***Zərraf ŞİRİNOV,***
***Elmi Cərrahiyyə Mərkəzinin baş elmi işçisi, professor***

Şamil Fərzəliyev – 90

# Ürəklərdə yaşayan yazıçı-jurnalist

**Tanınmış yazıçı-jurnalist, unudulmaz media təşkilatçısı Şamil Fərzəliyev (Şamil Xurşud) həyatdan vaxtsız getsə də, ədəbi-mədəni aləmdə silinməz izlər qoyub. Onun çoxşaxəli bədii-publisistik irsi ədəbiyyatımızda və jurnalisistikamızda özünəməxsusluğu ilə seçilib və əks etdirdiyi dövrün canlı salnaməsi kimi bu gün də tarixi-estetik önəmini qoruyub saxlayır.**

Əslən Qərbi Azərbaycanın Zəngəzur mahalının Ağudi kəndindən olan Şamil Fərzəliyev 1934-cü il fevralın 18-də Ucar rayonunda anadan olmuşdu. Ötən əsrin 50-ci illərində Bakı Dövlət Universitetində jurnalistika təhsili aldığı illərdən bədii-publisistik yaradıcılığa başlayan gənc qələm sahibinin qəzet-jurnallarda çap olunan müxtəlif janrlı yazıları, televiziya və radio səhnəcikləri onu istedadlı müəllif kimi tanıtmışdı. Ali təhsildən sonra Moskva İctimai Elmlər Akademiyasını da bitirən Şamil müəllim Azərbaycan KP MK aparatında təlimatçı vəzifəsində çalışsa da, onun yazıb-yaratmaq həvəsi qarşısında açılmış ictimai-siyasi karyera yüksəlişinə üstün gəlmişdi.

1972-ci ildə ölkənin populyar "Azərbaycan gəncləri" qəzetinin baş redaktoru vəzifəsinə təyin olunan yazıçı-jurnalist yaradıcılıqla daha ciddi məşğul olmağa başlamış, bir sıra sənədli-bədii əsərlər ərsəyə gətirmişdi. Təcrübəli media təşkilatçısı 1980-ci ildə Azərbaycanda "Molla Nəsrəddin" ənənələrini davam etdirən "Kirpi" satirik jurnalının baş redaktoru vəzifəsinə irəli çəkilmiş və 6 il bu nüfuzlu nəşrə bacarıqla rəhbərlik etmişdi. O illərdə yeni kitabları nəşr olunmuş, pyesləri səhnələşdirilmişdi. Amansız xəstəliyin 52 yaşında, yaradıcılığının çiçəklənən vaxtında istedadlı qələm sahibini həyatdan aparması jurnalistika və ədəbiyyatımızın da ağır itkisi olmuşdu.

O zaman oğlanları – Araz 9-cu sinifdə oxuyurdu, Azər hərbi xidmətdə idi. Qızları Həqiqət və Sədaqət təzə ailə həyatı qurmuşdular. Nəvələri Xəzərlə Orxan hələ yenicə "baba" deməyə başlamışdılar. Azərin ailə həyatı qurmağını, Arazın Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirməyini, Həqiqətin oğlu Oqtayın, qızı Nigarın, Sədaqətin oğlu Cavidin, qızı Nərgizin, Azərin oğlanları Şamil və Cavadın, qızı Səminin, Arazın qızları Nuray və Fidanın dünyaya gəlməyini görmək isə Şamil müəllimə qismət olmsa da, onun nakam ruhunu sevindirib, nəslinin davamına sevindirici töhfələr olub. Adı, imzası isə professional jurnalistikamızda və milli ədəbiyyatımızda unudulmaz yazarların sırasında yer alıb.

Ötən əsrin 70–80-ci illərində ölkəmizin ən oxunaqlı qəzetlərindən biri olan "Azərbaycan gəncləri"nin baş redaktoru olması yaşlı nəslin yaddaşında parlaq izlər qoyub. Qəzetin sovet dövrünün mətbu nəşrləri arasında öz mövzuları, dəst-xətti ilə seçilməsi xeyli dərəcədə onun təşəbbüskar, sabitqədəm media rəhbəri olması ilə bağlı idi. Şamil Fərzəliyev "Kirpi" jurnalına baş redaktorluğu dövründə bu nəşr cəmiyyətdə baş verən neqativ hallara, əliəyriliyə, rüşvətxorluğa və bürokratiyaya qarşı ən fəal mübarizə aparan mətbu orqan kimi daha da populyarlaşıb.

Vaxtilə bir yerdə çalışdığı həmkarlarından biri öz xatirələrində onu "oxucularını insanlığa, Vətənə, torpağa məhəbbətə və bağlılığa çağıran redaktor", başqa biri "əqidəli, yüksək mənəviyyatlı və fəal vətəndaş mövqeyi olan ziyalı", digəri isə "vicdanlı, zəhmətkeş insan, demokratik ruhlu qəzet rəhbəri" adlandırıb. Onun barəsində bir yerdə işlədiyi həmkarlarından Şahin Quliyev, Tofiq Mütəllibov, Mürşüd Dadaşov, Piri Məmmədov, Möhbəddin Səməd, Abdül Qəni, Şakir Yaqubov, Elçin Mehrəliyev yüksək sevgi və ehtiramla söz açıblar.

Ötən əsrin 60-cı illər ədəbi nəslinə mənsub olan istedadlı jurnalist və qəzet redaktorunun ədəbi yaradıcılığı çox maraqlı və rəngarəng idi. Şamil Xurşud qələmə aldığı obrazların fərdi xüsusiyyətlərini, psixoloji aləmini açmağı, təsvir etdiyi hadisələrin mahiyyətini bitkin ifadələrlə dolğun və canlı çatdırmağı sevirdi. Yazıçı və şairlərdən Əli Vəliyev, Məmməd Araz, Qulu Xəlilov, Nəbi Xəzri, Cəmil Əlibəyov, Qəşəm Aslanov, Yusif Kərimov, Vahid Əziz, Rəfiq Zəka, Xalid Əlimirzəyev, Şahmar Əkbərzadə, Əmir Mustafayev, İsmayıl Qarayev, Qədir İsmayılov, Flora



Xəlilzadə Şamil Fərzəliyevin yaradıcılığı və şəxsiyyəti barədə mötəbər fikirlər söyləyiblər.

Şamil Xurşudun "Sizi unutmaram", "İnsan yaşayır", "Azarkeş nənə", "Xəstələr", "Özüm və özün", "Ağaclar kəsilmədi", "Naxırçı çörəyi", "Sakitlik olmayacaq" kitabları çox böyük maraqla oxunurdu. O, həm də incə zövqlü, hadisələri inandırıcı, əhatəli təhlil edən, şərh verən dramaturq idi. "Sən tək deyilsən", "Məhəbbət novellası", "Yaz yağışı", "Qvardiya, irəli", "Sevinc", "Yol ayrıcında", Mirzə Şəfi Vazehin həyatına həsr etdiyi "Bəxtiyar deyil" səhnə əsərləri və televiziya tamaşaları bədii məzmunu, milli koloriti və üslubu ilə tamaşaçıların rəğbətini qazanmışdı.

İstər jurnalist, istər yazıçı, istərsə də dramaturq kimi Şamil müəllimin qısa ömründə qoyduğu izləri, unudulmaz xatirələri saymaqla qurtarmaz. Bütün bunlarla yanaşı, Şamil Fərzəliyev gözəl və alicənab insan, hamıya xeyirxahlıq, kömək etməyə, yardım əli uzatmağa hazır olan genişqəlbli insan idi. Onu tanıyan hər kəsin qəlbi sağlığında ürəklərdə özünə heykəl qoyduran istedadlı yazıçı-jurnalistin barəsində ən xoş və məhrəm sözlərlə dolu idi. Övladlarına təmizlik, saflıq, xeyirxahlıq kimi nəcib keyfiyyətlər aşılayan Şamil müəllimin öz həyatı da hekayə kimi maraqlı və unudulmaz idi.

Təkcə yaradıcılığı, əsərləri, səmimiyyəti deyil, Şamil Fərzəliyevin ailə münasibətləri, övladlarına və doğulduğu torpağa olan sevgisi də bir örnək idi. O, vəfat edəndə dəfn üçün Bakıda İkinci Fəxri xiyabanda yer ayrılsa da, onu öz arzusuna uyğun olaraq Ucardakı Qarabörk məzarlığında torpağa tapşırıblar. Parlaq xatirəsi isə qədirbilən ürəklərdə yaşayır.

***Süleyman QARADAĞLI,***
***AZƏRTAC-ın aparıcı müxbiri***

# Subayların sevgi hekayəsi



**Mingəçevir Dövlət Dram Teatrında İsi Məlikzadənin məşhur "Subaylarınızdan görəsiniz" əsəri əsasında hazırlanan tamaşanın təqdimatı uğurla keçib.**

Səhnə əsərinə Xalq artisti Valeh Kərimov quruluş verib. Komediya məişət əhvalatı üzərində qurulub. Bakıda təhsil alan Qəndab kənddə yaşayan qonşusu Mayılla 1 ildir ki, məcburi nişanlıdır. Amma Qəndabın könlü Bakıda tanış olduğu Fəqan adlı bir oğlandadır. Bir gün Fəqan Qəndabın arxasınca kəndə gəlir və bu, maraqlı əhvalatların yaranmasına səbəb olur...

Tamaşanın quruluşçu rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçıları Gülcahan Yusifova və Elnur Rəsulov, rejissor asistenti isə Məlahət Ağayevadır. Əsas rolları Afət Əliyeva (Səməni), Asim Məmmədov (Seyfi), Turqut Məsimli (Fəqan), Aytən Gəncəli (Qəndab), Vəfa İsmayılova (Çiçək), Elvin Əkbərli (Mayıl) və başqaları oynayıblar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

"2024-Yaşıl dünya naminə həmrəylik ili"



# Naftalanda "yaşıl" aksiya

**Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nin elan edilməsi-məqsədyönlü siyasətin məntiqi nəticəsidir" mövzusunda toplantı keçirilib. Məclisdə ayrı-ayrı nazirliklərin, şirkətlərin, agentliklərin nümayəndələri, idarə, müəssisə, təşkilat rəhbərləri, məktəblilər iştirak ediblər.**

İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin ekoloji siyasətini əks etdirən foto-eksponatlarla tanış olub, daha sonra müxtəlif bitkilərdən ibarət sərgiyə baxıblar. "Təbiəti qoruyaq" adlı videoçarxın nümayişindən sonra şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov qonaqları salamlayıb və bildirib ki, bu gün Azərbaycan dünyada gedən iqlim dəyişikliyi proseslərinə ən həssas yanaşan azsaylı ölkələrdəndir.

Bildirilib ki, COP29-un ölkəmizdə keçirilməsi beynəlxalq miqyaslı uğurdur, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi isə təkcə ölkəmiz üçün deyil, bütün dünya üçün qlobal çağırışdır.

"Qlobal iqlim dəyişikliyinin həlli qlobal həmrəylik tələb edir", "Yaşıl dünya naminə dövləti ilə həmrəy olan vətəndaş cəmiyyəti" mövzusunda çıxışlarda qeyd edilib ki, Azərbaycanda son 30 ildə Qarabağ münaqişəsi ekosistemə çox ciddi zərər vurmuş və ətraf mühit müxtəlif çirklənmələrə məruz qalmışdır.

Sonda tədbir iştirakçılarına maarifləndirici bukletlər və əkmək üçün həmişəyaşıl bitkilər paylanıb. Bayraq meydanında isə ağacəkmə aksiyası keçirilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Naftalan**

# Tarixçi akademikin çoxcildliyinin növbəti 3 kitabı

**Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət Mükafatı laureatı Yaqub Mahmudovun "Seçilmiş əsərləri"nin növbəti, XVIII-XX cildləri nəşr edilib.**

"Azərbaycan Tarixçiləri" İctimai Birliyindən "XQ"yə verilən məlumata görə, yeni nəşrlər akademikin 85 illik yubileyinə həsr olunub.




"Seçilmiş əsərlər"in XVIII-XX cildlərinə Yaqub Mahmudovun "Azərbaycan xalqının İrəvan və ətrafındakı torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır" (Azərbaycan, ingilis və rus dillərində), "Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix" (Azərbaycan, ingilis, rus və gürcü dillərində), "Real tarix və "böyük Ermənistan" uydurması" (gürcü, ərəb, ibri və fars dillərində), "Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920): Azərbaycan xalqının tarixinin parlaq səhifəsi" (Azərbaycan və rus dillərində), "1918–1920-ci illərdə Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımı" (ingilis, rus, polyak və gürcü dillərində), "Səyyahlar Azərbaycana gəlir" (Azərbaycan və ingilis dillərində), "Səyyahlar, kəşflər, Azərbaycan" (ingilis dilində) və "Odlar yurduna səyahət" (ingilis dilində) kitabları daxil edilib.

Cildlərin elmi redaktorları tarixçi alimlər Güntəkin Nəcəfli və Yeganə Gözəlova (Çağlayan), dizayneri riyaziyyat üzrə fəlsəfə doktoru Mehri Xanbabayeva, texniki redaktoru isə Aydan Əliməmmədovadır.

# BRICS – yeni dünya nizamının bir hissəsi

## Bu birlik Qərbin hökmranlığına son qoya biləcəkmi?

**Bu gün artıq tarixin gerçəyinə çevrilmiş BRICS "qızıl milyarda" aid olmayan ölkələr üçün, həqiqətən, cazibə nöqtəsinə çevrilib. Doğrudur, "Qlobal Cənub" ölkələri BRICS-ə qoşulmağa tələsir" demək və BRICS-in özünü "Qlobal Cənub"un bir hissəsi kimi təsnif etmək – bu, Qərbin bəşəriyyətin qalan hissəsi üçün təyin etdiyi rolları itaətkarlıqla yerinə yetirməyə davam etməkdən qətiyyən fərqlənməzdi.**

Etiraf etmək lazımdır ki, son illər BRICS və bu formata qoşulmaq istəyən ölkələr dünyanın böyük əksəriyyətini təşkil edir. Qondarma "qızıl milyard" Yer kürəsi əhalisinin yalnız kiçik bir hissəsidir. Onlar tarixən əvvəlcə başqalarının sərvətindən qeyri-qanuni istifadə etmək və başqa ölkələrin əhalisini istismar etmək kimi "müstəsna hüquqa sahib olmaq"la lovğalanırdılarsa, indi çılğınlıqla "yenilikçi" neokolonializm və özlərinə faydalı olan standartların və qaydaların tətbiqi yolu ilə bu fürsəti qoruyub saxlamağa çalışırlar.

Son illərdə aydın görürük ki, bir çox həmfikir ölkələrin qeyri-Qərb ittifaqının bir hissəsi olmaq imkanına yiyələnmək kimi çox böyük tələbatı ortaya çıxıb. Sual yarana bilər ki, beynəlxalq münasibətlərdə təlatümlərin artdığı, Qərb dövlətləri tərəfindən qarşıdurma xarakterli soyuq müharibə düşüncəsinin tətbiqinə, hətta öz milli maraqlarının zərərinə olsa belə, məcburi seçimə baxmayaraq, BRICS-i bu qədər cəlbedici edən nədir? sarsıdacağından narahat olmaqdansa, Qərbə sual vermək lazımdır ki, nə üçün 20-dən çox ölkə bu quruma üzv olmağa bu qədər can atır? BRICS-in genişləndirilməsi hər hansı qarşıdurma xarakterli anti-Qərb gündəminin formalaşdırılması demək deyil, bu, mövcud qlobal idarəetmə sistemində islahatların aparılması istəyidir.

BRICS ölkələri özləri də başa düşməlidirlər ki, öz sıralarının genişləndirilməsinin bədəlini ödəməlidirlər: assosiasiya daxilində daha çox sayda və daha çox müxtəliflik bir çox mühüm məsələlərdə ortaq məxrəcə gəlməyi çətinləşdirəcək. Hindistan və Pakistanın qəbulundan sonra Şanxay Əməkdaşlıq Təşkilatının təcrübəsi buna sübutdur.

Bundan əlavə, hələlik, BRICS-i öz nizamnaməsi, prosedurları, daimi qərargahı və inzibati büdcəsi olan tam hüquqlu beynəlxalq təşkilat hesab etmək olmaz. Birlik daxilində siyasi və ekspert səviyyələrində əməkdaşlığın dərinləşdirilməsi Yohannesburqda iki şeyə necə nail olacağı qərarını belə açıqlamışdı: "Amerika dollarından asılılığın azaldılması və çoxqütblü beynəlxalq maliyyə sisteminin formalaşdırılması". Bu da, öz növbəsində, BRICS ölkələrinin yeni inkişaf səviyyəsinə çatmasına imkan verəcək.

BRICS-in inkişafına təkan verə biləcək digər amil assosiasiyanın iştirakçılar fondunun genişləndirilməsidir. Yohannesburqda keçirilən sammitdə "beşlik" birdən-birə 6 ölkənin üzvlüyünə yaşıl işıq yandırmışdı. 2024-cü il yanvarın 1-dən Argentina, Misir, Efiopiya, İran, Səudiyyə Ərəbistanı və BƏƏ assosiasiyanın tamhüquqlu üzvü olacaqdılar.

Həmin sammitdə Cənubi Afrika Respublikasının (CAR) Prezidenti Siril Ramafosa qeyd etmişdi ki, genişlənmənin ilk dalğasının ardınca yeni dalğa gələcək. Ona görə də CAR-da keçirilən sammitdə BRICS iştirakçılarının sayını daha da artırmaq üçün meyarlar hazırlandı. Yeri gəlmişkən, birliyin abbreviaturası dəyişməyəcək, çünki o, artıq formalaşmış brend hesab edilir.

Bəs Azərbaycan necə, BRICS-ə üzvlük haqqında düşünürmü və ümumiyyətlə, regonun politoloqları və iqtisadçı ekspertlərinin buna münasibəti necədir? Doğrudur, hazırda sayı sürətlə artan




Doğrudur, BRICS tarixi miqyasda qısa yol qət etsə də, bu yol çox intensiv olub. Bu müddətdə həm sammitlər, həm də nazirlər, ekspertlər və işçi qrupları formatları çərçivəsində çoxsaylı tematik məzmunlu iş üçün möhkəm zəmin yaradan, güclü institusional çərçivə formalaşdırılıb. Üstəlik, söhbət təkcə iqtisadiyyatdan deyil, dövlətlərarası qarşılıqlı fəaliyyətin hər üç sütunundan – siyasi, sosial-iqtisadi, ticarət və humanitar sahələrdən gedir. Ən parlaq uğur, əlbəttə ki, BRICS-in yaratdığı Yeni İnkişaf Bankıdır (NDB), lakin elm, texnologiya və innovasiya sahəsində əməkdaşlığın arxitekturasını və ikinci planda görülən işləri, BRICS İqtisadi Tərəfdaşlıq Strategiyası və Şəbəkə Universitetinin işə başlaması sahəsində humanitar layihələri, özünün akademik reytinqinin yaradılmasını və bir çox digər sahələri də qeyd etməmək doğru olmazdı.

2024-cü ildə BRICS-i nə gözlədiyini başa düşmək üçün, ilk növbədə, onun təkcə genişlənməsinin deyil, həm də gələcək inkişafının perspektivlərini qiymətləndirmək lazımdır: "dialoq forumu"ndan "koordinasiya mexanizminə".

Əvvəla, yeni üzvlərin qoşulması ilə BRICS öz iqtisadi potensialını və dünya iqtisadiyyatındakı payını artıraraq planetin iqtisadiyyatına təsir vasitəsinə və yeni dünya nizamının mühüm tərkib hissəsinə çevriləcək. "Bloomberg"in hesablamalarına görə, 2040-cı ilə qədər qlobal ÜDM-in 45 faizə qədəri BRICS ölkələrinin payına düşəcək. Bu isə G7 ölkələrinin sahib olacaqlarından iki dəfə çoxdur.

2023-cü ilin avqust ayına olan məlumata görə, 23 ölkə BRICS mexanizminə qoşulmaq arzusunu rəsmən ifadə etmişdi. Bu ölkələrin ehtiyacları müxtəlifdir: bəziləri ticarət hesablaşmalarında ABŞ dollarından imtina etməyə, digərləri beynəlxalq bölgüdə mövcud modelə meydan oxumağa, bir başqaları isə xammaldan asılı iqtisadiyyatdan texnoloji və innovativ inkişaf modeli yoluna keçməyə ümid edir.

Altı yeni BRICS üzvündən beşi Yaxın Şərq və Şimali Afrikadadır. Bunlardan Səudiyyə Ərəbistanı və BƏƏ-nin üzvlüyü xüsusi əhəmiyyət kəsb edir. Onlar ənənəvi olaraq ABŞ-ın sadiq müttəfiqləri olublar və əlbəttə, BRICS-də iştirakları onların bu ənənəvi mövqedən əl çəkəcəkləri demək deyil. Lakin bu, onların daha balanslı mövqeyindən xəbər verir. Amma Argentina, məsələn, yeni qərbyönlü prezident hakimiyyətə gəldikdən sonra üzvlük təklifindən imtina etdi. Bu, elə bir ciddi məsələ deyil, çünki BRICS könüllü təşkilatdır.

Ümumiyyətlə, BRICS-in genişlənməsi Qərb tərəfindən nə az, nə çox, mövcud beynəlxalq nizama meydan oxumaq kimi qəbul edilir və bu, inkişafın birləşdirici tendensiyasını tanımaq istəməyən ölkələrin və təşkilatların qorxu və etirazına səbəb ola bilər. Lakin BRICS-in genişlənməsinin hazırda Avropa və ABŞ-ın hökmranlıq etdiyi beynəlxalq nizamı yolu ilə getmək, yoxsa onu rəqəmsal genişlənmə ilə məhdudlaşdırmaq barədə müzakirələr davam edir. Siyasi ekspertlər belə qənaətdədirlər ki, BRICS-in genişlənməsi və dərinləşməsi arasında yekun seçim etməyə ehtiyac yoxdur.

Rusiyanın P.A. Stolıpin adına İdarəçilik İnstitutunun eksperti Valeri Kuzin sürətlə dünya vətəndaşlığını təsdiq edən BRICS-ə münasibətini belə açıqlayır: "BRICS tərəfdaşları arasında əlaqələr yalnız bütün iştirakçıların qanuni maraqları nəzərə alınmaqla, şəffaflıq və həmrəylik prinsipləri əsasında inkişaf edir. Mövcud olduğu müddətdə birlik regional ölkələr qrupundan beynəlxalq arenada nüfuzlu oyunçuya çevrilib. Birlik ölkələrində artıq dünya əhalisinin 42 faizi yaşayır, dünya ÜDM-nin 23 faizi və ticarət dövriyyəsinin 18 faizi burada cəmlənib; BRICS iqtisadiyyatı artıq keçən il G7 qrupundan daha böyük olub və dinamik inkişafını davam etdirir.

Bu gün birliyin üzvləri təkcə milli valyutalarda qarşılıqlı hesablaşmaları deyil, həm də öz hesablaşma vahidlərinin yaradılmasını müzakirə edirlər. Braziliya, Laos və Pakistan kimi ölkələr isə artıq beynəlxalq ödənişlərdə dollardan imtina edib yuana keçməyə hazır olduqlarını bəyan ediblər. Beləliklə, başa düşmək olar ki, bir çox dövlətlər bu perspektivli struktura qoşulmaq və eyni zamanda bərabərhüquqlu tərəfdaşlıqdan faydalanmaq istəyirlər".

Ekspertlər əmindirlər ki, BRIKS ailəsinin genişlənməsi birliyi gücləndirəcək və kollektiv Qərbin təzyiqinə məruz qalmayacaq alternativ maliyyə sisteminin formalaşmasına doğru irəliləməyə imkan verəcək. Rusiya Prezidenti Vladimir Putinin dediyinə görə, "BRIKS heç kimlə rəqabət aparmır, heç kimə qarşı çıxmır", lakin nə Rusiya Federasiyası, nə də digər dövlətlər birqütblü dünya nizamına dözmək niyyətində deyillər.

Mühüm məsələlərdən biri də BRICS-in qeyri-bərabərliyin aradan qaldırılmasına və iqtisadi inkişafa böyük diqqət yetirməsidir. Bunu prioritetlərin biri kimi seçmənin səbəbi odur ki, Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikanın ən azı bir ümumi problemi var. Son illərdə, demək olar ki, bütün sahələrdə əldə etdikləri irəliləyişlərə baxmayaraq, bu ölkələrdə hələ də xeyli sayda yoxsul insan var. Buna görə də, ötən ilin sonunda "Yohannesburq 2" yekun bəyannaməsinin qəbulu ilə nəticələnən Cənubi Afrikadakı sammitdə dünya səviyyəsində ciddi problem olan qeyri-bərabərlik, bunun xüsusilə koronavirus pandemiyasından sonra daha da güclənməsi problemi əsas yerlərdən birini tuturdu.

BRICS-in milli valyutaların beynəlxalq ticarət və maliyyə əməliyyatlarında istifadəsinin təşviqinə xüsusi diqqət yetirməsi də diqqətçəkən əsas məsələlərdəndir. Bu məsələnin həllində infrastruktur layihələrinin maliyyələşdirilməsi üçün yaradılmış Yeni İnkişaf Bankının mühüm rolu olacaq. Onun prezidenti Dilma Rousseff "Qlobal Cənub" ölkələri üçün BRICS, ilk növbədə, məşvərətçi rol oynayır.

Azərbaycandakı Cənubi Qafqaz Tədqiqatları Mərkəzinin analitikləri hesab edirlər ki, bölgədə kommunikasiyaların açılması prosesi Bakı üçün yeni imkanlar yaradır: "İranın BRICS-ə qoşulması və bu birliyin hər iki tərəfdən Azərbaycan sərhədlərinə çatması rəsmi Bakı üçün əlverişli imkanlar açır:

Azərbaycan belə böyük iqtisadi potensiala malik platformaya yaxın olmasından maksimum yararlanmalıdır. Yeri gəlmişkən, unutmaq olmaz ki, Hindistan, İran və Rusiya kimi BRICS ölkələrini birləşdirən Şimal–Cənub dəhlizinin qərb marşrutu ölkəmizin ərazisindən keçir. BRICS-in genişlənməsi isə Cənubi Qafqaz, o cümlədən Azərbaycan vasitəsilə qrup ölkələri arasında qarşılıqlı ticarətin həcminin artırılmasını qaçılmaz edir.

Yuxarıda qeyd etdiyimiz BRICS ölkələrini birləşdirən iki məqam Azərbaycan üçün də aktualdır. Çünki ölkəmiz də Qərblə əməkdaşlıq edir, lakin onun diktəsini tanımır və bərabərhüquqlu tərəfdaşlığın tərəfdarıdır. Digər tərəfdən də, Azərbaycan bir çox cəhətdən Cənubi Qafqaz regionunun lideridir.

Ekspertlərin açıqlamalarına görə, hazırda birliyə sədrlik edən Rusiya 2024-cü il yanvarın 1-də BRICS-ə qoşulmalı olan Argentinadan birlik üzvlüyünə imtina barədə rəsmi bildiriş aldıqdan sonra bir neçə ölkə vakant yer üçün müraciət edib.

Xüsusilə, Əlcəzair, Banqladeş, Bəhreyn, Belarus, Boliviya, Venesuela, Vyetnam, Kuba, Honduras, İndoneziya, Qazaxıstan, Küveyt, Mərakeş, Nigeriya, Fələstin, Seneqal, Tailand və Pakistan BRICS-ə üzlük üçün artıq ərizə verib. Buna baxmayaraq, digər ölkələr, o cümlədən Nikaraqua və Mərkəzi Afrika Respublikası da BRICS-ə qoşulmaq istəyindən danışır. Belə ki, Mərkəzi Afrika Respublikası Prezidentinin nümayəndəsi Albert Yaloke Mokpeme rus mətbuatına bildirib ki, onun ölkəsi artıq BRICS ölkələrinə birgə layihələrin variantlarını təqdim etməyə belə imkan tapıb.

Venesuelaya gəlincə isə, bu ilin yanvarında ölkə Prezidenti Nikolas Maduro respublikanın 2024-cü ilin oktyabrında birliyin Kazanda keçiriləcək sammitində tamhüquqlu üzv kimi BRICS-ə qoşulacağına ümid etdiyini bildirib. Karakasın bu istəyinin səbəbləri arasında blokun iqtisadi potensialı əsas yer tutur. Maduro qeyd edib ki, Venesuela "yeni dünyanın, yeni balansın bir hissəsi kimi BRICS-ə üstünlük verir".

Dünyanın yeni blokunun hansı xarakter alacağı dəqiq məlum olmasa da, bir gerçək ortadadır ki, dünya daha əvvəlki kimi olmayacaq. Çünki BRICS-in belə sürətlə genişlənməsi beynəlxalq ictimaiyyətə aydın mesaj verir ki, "birqütblü dünya erası başa çatmaq üzrədir".

***İlqar RÜSTƏMOV***
***XQ***

**Aİ ölkələri fevralın 19-da yekunlaşması gözlənilən 13-cü sanksiyalar paketinə Şimali Koreyadan və ən əsası, Çin Xalq Respublikasından olan bəzi hüquqi və fiziki şəxsləri daxil etmək niyyətindədir. Əvvəllər Aİ Rusiya ilə əməkdaşlığa görə Çini cəzalandırmaqdan yayınırdı. Artıq Çin Xarici İşlər Nazirliyi bununla bağlı etirazını bildirib. Bununla belə, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel hesab edir ki, bu məsələdə qətiyyətlə hərəkət etmək lazımdır, əks halda, Ukrayna uduzacaq.**



# Avropa İttifaqı Pekini də cəzalandırmaq istəyir

Aİ-nin Rusiya ilə Ukrayna arasında münaqişənin ikinci ildönümünə hazırladığı yeni anti-Rusiya sanksiyalar paketi çox güman ki, yalnız ayrı-ayrı şəxslərə yönəlmiş fərdi sanksiyalar olacaq, lakin o ilk dəfə olaraq Rusiya–Çin əməkdaşlığına qarşı yönələcək. Qərb mətbuatı yazır ki, Brüsselin anti-Rusiya sanksiyaları rejimini pozmaqda şübhəli bildiyi hüquqi şəxslərin "qara siyahı"sına Türkiyə, Serbiya və Hindistan şirkətləri ilə yanaşı, Honq-Konqdan 4 və Çindən isə 3 şirkətin daxil edilməsi təklif olunur. Bu təklifləri özündə əks etdirən sənəd 91 səhifədən ibarətdir və Aİ diplomatik xidməti tərəfindən hazırlanıb. "The Guardian" qəzeti avropalı məmurun izahatına istinadən yazır ki, Rusiya Aİ sanksiyalarını aşmaq üçün çox çalışır və Avropa daha çox iş görməlidir. "Köhnə qitə" əvvəllər qəbul edilmiş paketlərdəki boşluqları bağlamalı, tətbiq edilən məhdudiyyətlərdən yan keçməyin yollarını müəyyənləşdirməli və Rusiya gəlirlərini daha da azaltmalıdır. Diplomatik xidmətin təklifləri çərşənbə günü, fevralın 14-də Brüsseldə müzakirə olunub. Mətbuatın verdiyi məlumata görə, Aİ ölkələrinin daimi nümayəndələrinin həftəlik toplantısı olub, tədbirdə Böyük Britaniya və ABŞ-ın nümayəndələri də iştirak ediblər. Danışıqların nəticəsi barədə məlumat verilməyib.

Əvvəllər çinlilərin Rusiya ilə əməkdaşlığa görə cəzalandırılması ideyası Brüsseldə dəfələrlə müzakirə olunub. Hələ ötən ilin dekabr ayında Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Çin sədri Si Sinpinlə görüşdən sonra demişdi ki, Aİ Çin şirkətlərinin siyahısını hazırlayıb, həmin şirkətlər Rusiyanın sanksiyalardan yayınmasında müəyyən rol oynaya bilər. Sonradan bu mövzu arxa plana keçdi. Ona görə ki, Aİ Çin hakimiyyətindən anti-Rusiya sanksiyalarından yayınmağa qarşı mübarizədə əməkdaşlığa hazır olduqlarına dair təminat almışdı. Siyasi analitiklərin fikrincə, ola bilsin ki, Aİ diplomatik xidmətinin təkliflərinə Ukraynadakı vəziyyətin təhlili təsir edib. J.Borrell bu yaxınlarda Kiyevə səfərindən sonra Ukraynaya dəstəyi gücləndirməyin vacibliyini açıqlayıb. Onun sözlərinə görə, Rusiya bir neçə aydan sonra hücuma keçə bilər.

Çin hakimiyyəti Aİ-nin xarici siyasətindəki bu dəyişikliyi açıq şəkildə pisləyib. Çin Xarici İşlər Nazirliyinin verdiyi məlumata əsasən, "Çin ÇXR və Rusiya Federasiyası arasında əməkdaşlığa görə Çinə qarşı qeyri-qanuni sanksiyaların tətbiqinə qəti şəkildə qarşı çıxır". Çin Xarici İşlər Nazirliyi ölkə hakimiyyətinin "Çin müəssisələrinin qanuni hüquq və maraqlarını qətiyyətlə qorumaq üçün lazımi tədbirlər görəcəyini" vəd edir. Bəyanatda bu məsələdə əks-sanksiyadan söhbət getdiyi göstərilmir. Analitiklərin sözlərinə görə, iqtisadi güc mərkəzlərindən biri olan Aİ ilə mübahisə etmək Pekin üçün asan deyil. Çin və Aİ arasında ticarət 2023-cü ildə bir qədər azalsa da, hələ də çox böyük olaraq qalır. Çinin Baş Gömrük İdarəsinin məlumatına görə, 2022-ci ildə Aİ ilə ticarət dövriyyəsi 1,6 trilyion dollar olub. Bu, Rusiya ilə ticarətlə müqayisədə 8 dəfə çoxdur.

İqtisadi cəhətdən Pekinlə sıx bağlı olan KXDR-ə qarşı sanksiyalara da qismən Çin əleyhinə tədbir kimi baxmaq olar. "Bloomberg"in fevralın 14-də verdiyi məlumata görə, Şimali Koreyanın müdafiə naziri Kanq Sun Nama və bu ölkənin Baş Raket İdarəsinə qarşı məhdudiyyətlər tətbiq olunacaq. Onlar Rusiya Federasiyasına ballistik raketlər verməkdə ittiham olunurlar. Qeyd edək ki, həm Rusiya, həm də Şimali Koreya hakimiyyəti iki ölkə arasında hərbi-texniki əməkdaşlığın qurulmasını rəsmən təkzib edir. Şimali Koreyaya qarşı sanksiyalar simvolik xarakter daşıyacaq. Məsələn, Kanq Sun-namın Aİ ölkələrinə səfəri qadağan olunacaq, o, onsuz da bunu etmir. Belə görünür ki, Brüssel Pxenyan və Pekinə bir növ xəbərdarlıq edir. "Politico"nun məlumatına görə, Avropa Komissiyasının hazırkı prezidenti Ursula Fon der Lyayen Rusiyaya sanksiya tətbiq edilən malların tədarükü ilə mübarizəyə yönəlmiş tədbirlərin tez bir zamanda qəbul edilməsində israrlıdır.

***S.ELAY***
***XQ***

*BMT-nin Baş katibi:*

# Bəşəriyyət ən böyük parçalanma dövrünü yaşayır

**Münxen Təhlükəsizlik Konfransında çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş bildirib ki, hazırda dünyamız çox mürəkkəb çağırışlarla üz-üzədir, bəşəriyyət son 75 il ərzində heç vaxt olmadığı qədər parçalanıb və müxtəlif cəbhələrə bölünüb. O, "hər kəs üçün sərfəli olan qlobal nizamın" yaradılmasının zəruriliyini vurğulayıb.**



Təşkilatın rəsmi saytı xəbər verir ki, Baş katib üzv ölkələrin BMT Nizamnaməsindən irəli gələn öhdəlikləri yerinə yetirəcəyi təqdirdə Yer kürəsində hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşaya biləcəyini söyləyib. Onun sözlərinə görə, təəssüf ki, hökumətlər bu öhdəliklərə məhəl qoymur, milyonlarla mülki insan bundan dəhşətli dərəcədə əziyyət çəkir, rekord sayda qaçqın meydana çıxır.

Antonio Quterreş "daha şəbəkələşmiş və inklüziv çoxtərəflilik" adlandırdığı üsulla qlobal kollektiv təhlükəsizlik sistemlərini yeniləməyi hədəfləyən və keçən ilin iyul ayında təqdim edilən Yeni Sülh Gündəliyindən bəhs edib. Bu sənəddə yer alan tövsiyələrə BMT Təhlükəsizlik Şurasında islahatların aparılması, nüvə silahlarının ləğvi ilə bağlı öhdəliklərin götürülməsi və münaqişənin qarşısının alınmasında davamlı inkişaf və iqlim fəaliyyətinə daha çox önəm verilməsi daxildir.

Baş katib bildirib ki, sülh naminə yeni gündəlik bu ilin sentyabrında BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçiriləcək Gələcəyin Zirvə görüşündə müzakirə olunacaq. O, 1940-cı illərdən bəri mövcud olan qlobal maliyyə institutlarının yaradılmasına istinad edərək "qlobal maliyyə arxitekturasında islahatların aparılması üçün Bretton-Vuds proqramının lazım olduğunu" söyləyib. "Bu, xüsusən də borc içində boğulan və inkişaf etməkdə olan ölkələr üçün əsl qlobal təhlükəsizlik şəbəkəsi yaratmağa kömək edərdi", – deyə BMT-nin rəhbəri bildirib. Onun sözlərinə görə, Gələcəyin Zirvə toplantısı bu institutları və çərçivələri həqiqətən universal və inklüziv etmək üçün dərin islahatlara olan ehtiyacı nəzərdən keçirəcək.

BMT-nin Baş katibi deyib ki, beynəlxalq ictimaiyyət problemlərin ədalətə əsaslanan həlli yolları üzərində çalışmalıdır. "Hər kəs üçün sərfəli olan daha əhatəli, mükəmməl və effektiv qlobal nizam yaratmaq imkanı həmişə var", – deyə o vurğulayıb.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 37 (30441) 18 fevral 2024-cü il, bazar

Paytaxtda yenilik

# Bakı küçələrində yaşıl zolaqlar...

**Avtomobil sükanı arxasında sürücülərin keçirdikləri əsəb, gərginlik... Üstəlik, yanacaq xərcləri, ağır tıxaclar, ətraf mühitin çirkləndirilməsi... Bunlar hamımızı narahat edən məsələlərdir.**



Sağlam həyat tərzi keçirən insanlar çıxış yolu kimi velosipedi ən yaxşı nəqliyyat vasitəsi hesab edirlər. Bəziləri isə skuter, moped və digər vasitələrdən istifadəyə üstünlük verirlər.

Bakıda artıq ötən ilin dekabrından bütün hərəkət iştirakçıları üçün bərabər şəraitin yaradılmasına yönələn mikromobillik infrastrukturunun qurulmasına başlanılıb ki, bu da hamımızı sevindirir. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən hazırlanan layihənin ilkin mərhələsi Bakı şəhərinin əsasən mərkəzi hissələrini – İstiqlaliyyət küçəsi, Azərbaycan prospekti, Mirzağa Əliyev küçəsi, Bülbül prospekti, Fikrət Əmirov küçəsi və Bulvar ərazisini əhatə edir.

Qurumdan qəzetimizə bildirildi ki, hazırda müvafiq nişanlanma işləri Azadlıq prospektinin Füzuli və Şəmsi Bədəlbəyli küçələri ilə kəsişməsində aparılır. İndiyədək 3 min 300 metr məsafədə müvafiq nişanlanma işləri aparılıb, yol nişanları quraşdırılıb. 13 məntəqədə isə mikromobillik vasitələri üçün parklanma yerləri təşkil edilib. Növbəti mərhələdə avtomobillərlə yarana biləcək münaqişəli nöqtələrin aradan qaldırılması üçün təhlükəsizlik sədləri quraşdırılacaq. Ümumilikdə, 7 kilometrə yaxın məsafəni əhatə edən 1-ci mərhələ üzrə işlər yekunlaşandan sonra ilk dövri hərəkət təmin olunacaq.

***Bəs bu yollardan necə istifadə olunur? Yol nəqliyyatı eksperti Elməddin Muradlı mikromobillik infrastrukturunun getdikcə genişləndirilməsinin müsbət hal olduğunu vurğulasa da, velosiped zolaqlarında hərəkətin hansı formada həyata keçirilməsi ilə bağlı bəzi məsələlərin açıq qaldığını dedi:***

–Zolaqda qayda pozanlara nə kimi cəza tətbiq olunacaq? Velosipedçi ox işarəsinin əksinə hərəkət edərsə, onu hansı cəza gözləyir? Həmin zolağa girən hərəkət iştirakçılarının yaş həddinə nəzarət olunurmu? Bu vasitələrin texniki vəziyyəti nə yerdədir? Bu məsələlər açıq qalır və qanunvericiliklə tənzimlənməlidir.

Ekspert velosiped zolağından hələlik az insanın istifadə etdiyini də diqqətə çatdırdı. E.Muradlının fikrinə əlavə etmək istəyirik ki, bəzi qayda pozuntuları velosiped zolağında hərəkət iştirakçılarına mane olur. Məsələn, avtomobil sürücülərindən kimi mağazadan nə isə almaq, kimi sərnişin gözləmək bəhanəsi ilə zolaqda park edir, kimi də xüsusi salınmış yol ilə hərəkət edir.

Avtomobil sürücülərinin mobillik infrastrukturu ilə bağlı fikirlərini öyrəndik. Aqşin Cavadov adlı sürücü dedi:

–Velosiped zolaqları yolların daraldılması hesabına salınıb, bu avtomobillərin hərəkətində sıxlıq yaradır.

Digər sürücü Elçin Camalov:

– Velosiped, moped, skuterlər qəza halları yaradır. Mobillik infrastrukturunun genişləndirilməsi təhlükəsizliyimiz üçün daha bir zəmanətdir.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə şöbəsinin baş inspektoru Toğrul Nəsirlinin qəzetimizə verdiyi açıqlamasında ötən il ərzində paytaxt ərazisində təkcə velosipedçilərin vurulması ilə nəticələnən 4 yol-nəqliyyat hadisəsinin qeydə alındığı və qəzalar zamanı 3 nəfərin həyatını itirdiyi, 1 nəfərin isə yaralandığı bildirilir.

Gənc velosipedçi Araz Əzimov isə hələlik onların hərəkəti üçün şəraitin olmamasından gileyləndi. Digər hərəkət iştirakçıları da gələcəkdə velosiped zolağının daha çox ərazini əhatə edəcəyinə ümid etdiklərini bildirdilər.

Diqqətimi səkidə skuterlə hərəkət edən gənc qız çəkdi. Söhbətləşdik. Səidə Hüseynova 3 ildir avtomobillə işə gedir.

–Hərdən skuter köməyimə gəlir. Təəssüf ki, velosiped zolağı çox qısa məsafəni əhatə edir. Səkilərlə getmək isə çox çətindir. Həm də utanıram. Ətrafdakılar diqqətlə məni süzürlər – deyə, o əlavə etdi.

Ölkəmizdə mobillik infrastrukturunun mərhələli şəkildə genişləndirilməsi və daha geniş ərazini əhatə etməsi planlaşdırılır. Burada sakinlərin üzərinə də böyük məsuliyyət düşür. Yeniyetməsi məktəbə, böyüyü isə velosipedlə işə gedən danimarkalılar kimi, əvvəlcə velosipedi özümüzə ən yaxşı dost seçməliyik. O zaman velosiped zolağında daha çox yol hərəkəti iştirakçısı görəcəyik.

***Leyla QURBANOVA,***
***Elşən AĞALAR (foto)***
***XQ***

Paris Olimpinə doğru

## "Böyük dəbilqə"nin 2-ci günü 2 qızıl medal

**Bakıdakı cüdo üzrə nüfuzlu "Böyük dəbilqə" daha bir möhtəşəm yarış günü geridə qaldı. Olimpiadaya yüksək lisenziya xalları verən və 62 ölkədən 400-dən çox cüdoçunun mübarizə apardığı yarışın 2-ci günündə "Böyük dəbilqə"nin açıq favoriti və dünyanın bir nömrəsi azərbaycanlı cüdoçu Hidayət Heydərov xüsusilə diqqət mərkəzində oldu.**



H.Heydərov həlledici qarşılaşmada tacikistanlı Abubakr Şerovla üz-üzə gəldi. Reytinq favoriti bu dəfə də ümidləri doğruldaraq rəqibi üzərində möhtəşəm qələbə qazanmaqla baş mükafata layiq görülüb.

Onu da bildirək ki, Hidayət Heydərov 2023-cü il Avropa çempionatının qalibi, eyni zamanda, ötənilki Tokio və Bakı "Böyük dəbilqə" yarışlarının qızıl medalçısıdır. O, öz kateqoriyasında Paris Yay Olimpiya Oyunlarında qızıl medal uğrunda mübarizə aparacaq ən güclü idmançıdır.

**Qarşılaşmadan sonra "XQ"yə müsahibə verən Hidayət Heydərov Bakı "Böyük dəbilqə"sində artıq 4-cü dəfə çempion olduğunu bildirdi. O, 2024-cü ilin ilk lisenziya xarakterli turnirində çempion adını qazanmaqdan məmnun olduğunu dedi:**

–Arxayınlaşmaq olmaz. Növbəti yarışlara fokuslanmaq lazımdır. Qarşıdakı Avropa və dünya çempionatlarına çıxış edəcəyəm. Əsas hədəf çempion olmaqdır.

81 kiloqram çəki dərəcəsində isə Azərbaycan finalında Ömər Rəcəbli və Zelim Tçkayev öz aralarında qalibi müəyyənləşdiriblər. Rəqibini məğlub edən Zelim Tçkayev qızıl medala layiq görülüb.

Xatırladaq ki, turnirin birinci günündə Azərbaycan cüdoçularından Balabəy Ağayev (60 kq) və Yaşar Nəcəfov (66 kq) bürünc medal əldə ediblər.

Qeyd edək ki, Bakı "Böyük dəbilqə"sinin qalibləri 1000, gümüş medal sahibləri 700, 3-cü yeri tutanlar isə 500 reytinq xalı qazanırlar.

***L.SABİRQIZI***
***XQ***

Teatr

# "Yeni müdir" Qusar səhnəsində

**Qusar Dövlət Ləzgi Dram Teatrı Mirzəli Rüstəmovun "Yeni müdir" tamaşasını teatrsevərlərə təqdim edib. Ləzgi dilində oynanılan tamaşanın quruluşçu rejissoru Bağır Əhmədov, rəssamı Bədəl Bədəlov, musiqi tərtibatçısı Şaiq Qardaşovdur.**

Qusar rayon Mədəniyyət Mərkəzində oynanılan səhnə əsərində əsas rolları aktyorlar Arzu Məmmədrzayeva, Elnur Hacıyev, Yeganə Kərimova, Emma Xeyirbəyova, Diana Cəfərova və başqaları ifa ediblər.

Zəngin səhnə dekorasiyası və aktyorların məharətli çıxışı ilə baxımlı olan səhnə əsəri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Teatrın direktoru Faiq Qardaşov bildirib ki, hazırda Mirzə Fətəli Axundzadənin "Hacı Qara" komediyası və Vüqar Haqverdiyevin "Saçları sənəni oğlan" əsərlərinin məşqləri davam edir. Mövsüm ərzində teatr şimal bölgəsinin bütün rayonlarında, həmçinin Bakı, Şəki, Lənkəran və Mingəçevirdə qastrol səfərləri ilə çıxış edəcək.

***XQ***



Kosmos



## Ayda Çin bağı?!

**Çin Milli Kosmik İdarəsi (CNSA) 2028-ci ilə planlaşdırılan "Change-8" Ay missiyasının təfərrüatlarını açıqlayıb. Məlumata görə, bu, Yerin peykində bitkilərlə ekosistemin yaradılmasını nəzərdə tutur.**

"Change-8" avadanlığına günəş enerjisindən istifadə edərək Ay torpağını əritmək və robotlar vasitəsilə sonrakı tikinti üçün bloklar yaradan qurğu daxildir.

Ekosistem təcrübəsi bitkilər və mikroblarla möhürlənmiş bir mühit yaratmaq kimi təsvir edilir. O, gələcəkdə qida və oksigen istehsal etmək məqsədilə Ay torpağından istifadənin həyat qabiliyyətini öyrənmək üçün nəzərdə tutulub.

Digər faydalı yüklərə radiometr və Yer müşahidələri üçün multispektral kamera daxildir. Qurğular yerin iqlimi və planetimizin maqnitosferi haqqında məlumat toplayacaq.

"Change-8" Çinə 2030-cu ildən əvvəl Aya eniş üçün hazırlaşmağa kömək edəcək.

***XQ***

Hava

## Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı, yarımadanın ayrı-ayrı yerlərində yağışın sulu qarla qarışıq yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 1-3°, gündüz 3-5° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 770 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında – bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq.

***Q. QASIMOV***
***XQ***

Sağlamlıq



# Limonun şirəsi – təbiətin möcüzəsi

**"Əgər siz çay, içki və qidalarda müntəzəm limon istifadə edirsinizsə, onun qabığından da istifadə edin". Bu fikri Almaniya sağlam qidalanma ekspertləri – alimlər açıqlamalarında yayıblar və limon qabığının xərçəng əleyhinə də təsirli olduğunu bildiriblər.**

Alman ekspertlər öz fikirlərini əsaslandırmaq məqsədilə limon qabığının 5 faydasını açıqlayıblar.

1. Bağırsaq xərçəngindən qoruyur. Həm portağal, həm limonun şirəsi və qabığı xərçəng əleyhinə təsir edir. Çünki onlarda olan flavonoidlər bağırsaq şişləri ilə mübarizə aparır. Limonda olan diosmin maddəsi bağırsağı qoruyur.

2. Qabıqda olan limonen maddəsi dəri xərçənginə qarşı təsirlidir.

3. Prostat xərçəngindən qoruyur, hətta şiş yaranıbsa, metastazların qarşısını alır.

4. İnsulin direnci və şəkərli diabetə təsir edir. Qarındaxili piylənməni azaldır.

5. Ürək-damar xəstəliklərində faydalıdır. Limonun qabığında və şirəsində çoxlu C vitamini olduğu üçün antioksidant təsir göstərir.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3590
SİFARİŞ 346
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00